# UNİKAL

№13 (2293) 10 aprel 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az





# Yağışın üzə çıxardığı normadan artıq məmur özbaşınalığı



Səh.5

## Azərbaycanın sığorta oliqarxlarına milyonlarla manatlıq şok

*Azərbaycanın bir neçə tanınmış sığorta şirkəti ümumilikdə külli miqdarda zərər edib. Bu sırada ilk yerlərdən birində "AtaSığorta" ASC-nin sığorta yığımlarında ciddi azalma qeydə alınıb. Belə ki, 2026-cı ilin ilk 2 ayında şirkət cəmi 2 min manat sığorta yığımı həyata keçirib. Ötən ilin eyni dövründə bu göstərici 1 milyon 702 min manat olub. Nəticədə illik müqayisədə yığımlar 1 milyon 700 min manat və ya 99,88% azalıb. Ödənişlərə gəldikdə isə, cari ilin ilk iki ayında şirkət 1 milyon 345 min manat ödəniş edib. Ötən ilin eyni dövründə bu rəqəm 687 min manat təşkil edib. Bu isə illik müqayisədə 658 min manat və ya 95,77% artım deməkdir. Valyuta.az yazıb ki, yığımların kəskin azalması fonunda ödənişlərin artması şirkətin zərərliliyinə...*

Səh.10

## "Dövlət büdcəsinə yenidən baxılması mümkündür"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, deputat Azər Badamov "Unikal"a müsahibə verib. O, neftin qiymətinin artmasından əldə olunan gəlirin necə xərclənəcəyindən, ərzaq məhsullarına vergi güzəştlərinin tətbiq oluna biləcəyindən...*

Səh.4

## ABŞ və İran vaxt qazanmaq üçün atəşkəsə razılaşıb? - Danışıqlardan sonra...



*Yaxın Şərqdə uzun müddətdir yığılan geosiyasi gərginlik 40 gün davam edən silahlı qarşıdurmaya çevrildi. Müharibənin başlanğıcı bir neçə paralel faktorun kəsişməsi ilə formalaşdı: İranın regional təsir imkanlarını genişləndirməsi və uranı zənginləşdirməsi, İsrailin təhlükəsizlik narahatlıqlarının artması...*

Səh.9

## Direktor təyin etdiyi şəxsdən Vüqar Qurbanova ittiham



*Respublika Perinatal Mərkəzinin sabiq direktoru Mehriban Abbasquliyeva bu tibb müəssisəsində 7 körpənin öldüyü yanğınla bağlı açılmış cinayət işi üzrə məhkəmənin növbəti iclasında sensasiyalı fikirlər səsləndirib. O, adıçəkilən Mərkəzdə təhlükəsizliklə bağlı tələblərin yerinə yetirilməməsində faktiki olaraq...*

Səh.6

13_27 IYUl-QARA.qxd 4/9/2026 10:01 PM Page 2



# "Mənə xəyanət edibsə, Allah balasını versin" - Şəbnəm Tovuzlu



***Müğənni Şəbnəm Tovuzlu səsləndirdiyi fikirlərə aydınlıq gətirməklə yenidən gündəmə gəlib.***

Sənətçi bir müddət əvvəl "xəyanəti bağışlayaram" fikri ilə bağlı yayılan müzakirələrə münasibət bildirib.

Şəbnəm Tovuzlu qeyd edib ki, bu sözləri illər öncə verdiyi müsahibədə səsləndirib:"Bu sözü 3-4 il əvvəl demişdim. Əvvəla yaxşı kişi qadınını sevirsə, xəyanət etməz. Amma elə kişilər var ki, qadından hər cəhətdən istifadə edir və istənilən an xəyanət edə bilər".

Müğənni əlavə edib ki, bəzi hallarda isə kişi qadınını çox sevsə də, səhv addım ata bilər:"Kişi də var ki, qadınını çox sevir, hörmət edir, dəyər verir, amma bəzən şeytana uyub xəyanət edir. Ona görə demişdim ki, qadın da çox sevirsə, məcbur bağışlayır. Mən də bağışlayardım".

Bununla yanaşı, o, şəxsi münasibətinə də toxunaraq bildirib ki, belə bir halın yaşanacağına inanmır:"Çox sevdiyim insan mənə xəyanət edibsə, Allah balasını versin. Amma inanıram ki, heç vaxt etməyib. Elə insan olmadığına ürəyimlə əminəm. Ona görə nə gedərəm, nə də onu buraxaram".

Qeyd edək ki, müğənninin bu açıqlamaları sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub.

# Nura Suri həbs edilən məşhurların tərəfini tutdu

***"Türkiyədə hər gün məşhurların tutulması ilə bağlı xəbərlər artıq bezdirib. Belə xəbərlər yorucudur, heç bir marağı və təsiri yoxdur. Guya məşhurlar vasitəsilə belə bir mesaj verirlər: "Məşhursansa belə, toxunulmaz deyilsən". Çox güman ki, məqsəd bu mesajı ötürərək qorxu yaratmaqdır".***



Bunu müğənni Nura Suri bildirib. İfaçı qeyd edib ki, bu cür xəbərlər ictimai diqqəti yönləndirmək məqsədi daşıyır: "Guya psixoloji təsir yaradırlar: gənclər üçün "cool" görünməsin, qorxu və çəkindirmə effekti formalaşsın. Eyni zamanda, ictimai diqqəti yönləndirmək məqsədi də daşıyır (siyasi aspekt də ola bilər), amma özləri də istəmədən reklam etmiş kimi olurlar. Bəzən belə əməliyyatlar gündəmdəki digər problemlərdən diqqəti yayındırmaq məqsədilə də edilir. Məşhur adı varsa, xəbər yayılır, reytinq artır, sosial mediada viral olur".

N.Suri medinın belə xəbərləri yaymamağı məsləhət görüb: "Seriallarda da mövzu, əsasən, qadağan olunmuş maddələr üzərində qurulur. Guya mübarizə aparır, amma əslində reklam etmiş olurlar. Bu cür xəbərlər, eləcə də bu mövzuda çəkilən film və seriallar əks təsir göstərir. Yəni məqsəd yayındırmaqdırsa, nəticədə reklam və cəlbetmə effekti yaranır. Xahiş edirəm, bizim media belə xəbərləri paylaşmasın".

Xatırlatma: Türkiyədə davam edən narkotik əməliyyatı çərçivəsində bu gün 14 nəfər saxlanılıb.



# "Toyda 100 dollar verdilər..." - Nadirdən etiraf

***"Mən çox sadəlövh olmuşam, hər kəsə inanmışam. Hamını özüm kimi qəbul etdiyimə görə həmişə aldadılmışam. Bəzi musiqiçilər var ki, onlar artıq dünyadan köçüblər. Məni məclislərə aparırdılar, pulumu kəsirdilər. Nə verirdilərsə, onunla qane olurdum. Aralarında sağ olanlar da var".***

Bu sözləri müğənni Nadir Qafarzadə "Qonaqcanlı" verilişində deyib. Sənətçi həmin dövrlə bağlı xatirələrini bölüşüb: "Bir gün Əməkdar artist Ruhəngiz Allahverdiyeva məni məclisdə gördü və "qanadları" altına aldı. Ruhəngiz xanım isə gözütox idi. Toyda gəlib əlimə 100 dollar vermişdilər. O vaxt bu məbləğ mənim üçün milyon manat demək idi. Gətirib Ruhəngiz xanıma verdim ki, bunu ümumi məbləğin üstünə qoyaq. Dedi ki, "Oğul, bu pulu sənə veriblər". Amma başqa müğənnilər adamın əlindən alırdı ki, səni toya mən gətirmişəm. Musiqiçilər bilir, mən nə demək istəyirəm. Bu hallarla çox qarşılaşmışam". (Axşam.az)

# Əməkdar artist: "İbrahim Tatlısesla duet oxumuşam"

***Azərbaycanın Əməkdar artisti Vasif Məhərrəmli efirdə səsləndirdiyi fikirlərlə diqqət çəkib.***



Sənətçi Türkiyənin məşhur müğənnisi İbrahim Tatlıses ilə bağlı maraqlı etiraf edib. Onun sözlərinə görə, ifaçı Tatlısesla bir neçə dəfə eyni məclislərdə iştirak edib və hətta səhnəni bölüşüb: "İbrahim Tatlısesla duet oxumuşam. 2-3 dəfə eyni toya dəvət almışıq, onunla səhnəni bölüşmüşük. Birgə duetimiz də olub".

Əməkdar artist bildirib ki, buna baxmayaraq, belə bir sənətçi ilə duet təklifi etmək heç vaxt ağlına gəlməyib: "Onunla duet oxumaq təklifi etmək heç ağlıma gəlməyib".

Qeyd edək ki, bu açıqlama sosial şəbəkələrdə də maraqla qarşılanıb və müzakirələrə səbəb olub.

# Röyanın məclisdə yaşlı kişi ilə maraqlı dialoqu

***Xalq artisti Röya Ayxan məclislərdən birində yaşanan maraqlı anlarla diqqət çəkib.***

Pop ulduzun qatıldığı tədbirdə şəkil çəkdirmək istəyən yaşlı kişi ilə səmimi söhbəti izləyicilərin marağına səbəb olub. Sosial şəbəkələrdə yayılan görüntülərdə sənətçinin həmin şəxslə mehriban və səmimi ünsiyyət qurduğu anlar əks olunub. Diqqət çəkən məqamlardan biri isə Röya Ayxanın yaşlı kişiyə əvvəl "day-day", daha sonra isə "müəllim" deyə müraciət etməsi olub. Bu dialoq sosial mediada müzakirələrə yol açıb və istifadəçilər tərəfindən maraqla qarşılanıb. Yayılan görüntülər qısa zamanda sosial platformalarda yayılıb və çoxsaylı şərhlərlə gündəmə çevrilib.

13_27 IYUl-QARA.qxd 4/9/2026 10:01 PM Page 3





## “Türkiyə Azərbaycanın istəmədiyi heç bir işin içində ola bilməz” - Şamil Ayrım

***“Azərbaycan lideri İlham Əliyevin liderliyində daha da güclənən modern Azərbaycanın uğurlarını məmnuniyyətlə müşahidə edirik. Biz eyni millətin övladlarıyıq. “Üç dövlət, bir millət” şüarı ilə başlatdığımız görüşlərimizə görə qürur duyduğumu bildirmək istəyirəm”.***

Bunu Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Ziya Öztürkler Milli Məclisdə Azərbaycan, Türkiyə, Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin işçi qruplarının təşkil edilən birgə görüşündə bildirib.

“Bu gün Yaxın Şərqdə olan hadisələr dost-müttəfiq, qardaş ölkələrin dostluğunun nə qədər doğru olduğunu göz önünə gətirir. Bölgəmizdə cərəyan edən müharibədə həm Şimali Kiprin cənubu, həm Türkiyə, həm də Azərbaycan dron hücumuna məruz qalmışdı. Çox şükür ki, ölənlər olmamışdı. Bu müharibənin ən qısa zamanda bitməyini arzu edirik. Bölgədə güclərimizi möhkəmləndirmək üçün Türk dünyasının ayrılmaz parçası olan Şimali Kiprin Türk Dövlətləri Təşkilatına və TÜRKPA-ya daxil olması üzv dövlətlərlə münasibətlərin daha əhəmiyyətli nöqtəyə gəlməsinə səbəb olacaq. Azərbaycan parlamenti ilə iş birliklərimizin bütün türk dünyası ölkələri ilə edilməsinin vacibliyini xatırlatmaq istəyirəm”, - Ziya Öztürkler qeyd edib.

Görüşdə Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım da çıxış edib: “Türkiyə Azərbaycanın istəmədiyi heç bir işin içində ola bilməz. ABŞ-də Ermənistan və Azərbaycan arasında sülh sazişi paraflandı, amma sülh sazişi imzalanmadı. Prezident İlham Əliyev dedi ki, Ermənistan Konstitusiyada dəyişiklik etdikdən sonra sülh sazişi imzalayacağıq. Yəni Ermənistanla Azərbaycan arasında qalıcı sülh imzalandıqdan sonra Türkiyə sərhədlərini açacaq”.

Türkiyə-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası dostluq qrupunun rəhbəri Orhan Erdem qeyd edib ki, Şimali Kipr bir vaxtlar Azərbaycanın da yaşadığı haqsızlığı yaşayan bir ölkədir: “Göz görə-görə Qarabağı illərlə işğal etdilər. Azərbaycanın müdaxiləsinə qədər bu işğala heç kim heç nə demədi. Azərbaycan öz ordusu ilə öz torpaqlarını işğaldan azad etdi. Şimali Kipr də 1500-cü illərdə atalarımızın aldğı torpaqlardır”.

## Onlar da YAP üzvü oldular



***Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının “Heydər Əliyev prospekti 152” ərazi partiya təşkilatında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinin İdarə Heyəti sədrinin müavini Zaur Ələkbərov, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov, rayon təşkilatının “Heydər Əliyev prospekti 152” ərazi partiya təşkilatının sədri Əhməd Talıbov və başqaları çıxış ediblər.

Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə təsis edilən və bu gün Prezident İlham Əliyevin Sədrliyi ilə uğurla fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası ölkənin ictimai-siyasi həyatında keyfiyyətcə yeni mərhələnin əsasını qoyub.

Qeyd edilib ki, müstəqil Azərbaycan Respublikasının əldə etdiyi uğurlar və nailiyyətlər dərin siyasi uzaqgörənlik, möhkəm ideoloji təməl və xalqın milli iradəsinə əsaslanan praqmatik inkişaf strategiyasının nəticəsidir.

Əlavə edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın regional və qlobal əhəmiyyəti daha da artıb, ölkəmiz Avrasiyasiya geosiyasi məkanında açar dövlətlərdən birinə çevrilib.

Görüşün sonunda YAP sıralarına yeni qəbul olunan bir qrup şəxsə üzvlük vəsiqələri təqdim olunub.

# Cahangir Əsgərovun bankı ilə bağlı böyük müəmma

## Ötən il bir manat da mənfəət vergisi ödəməyibmiş - Özü də 9 milyon manatdan çox mənfəəti olduğu halda...



***Ötən il Azərbaycanda fəaliyyət göstərən 22 bank ümumilikdə 911,2 milyon manat xalis mənfəət əldə edib və 214,6 milyon manat mənfəət vergisi ödəyiblər.***

Ən çox mənfəət vergisi ödəyən bank “Kapital Bank” ASC olub. Adıçəkilən bankın ötən il ödədiyi mənfəət vergisi 61,2 milyon manat təşkil edib.

Onu 53,7 mln. manat ilə ABB izləyib. Üçüncü pillədə 39,5 mln. manat ödənişlə “PAŞA Bank” qərarlaşıb. Dördüncü yerdə 13.9 mln. manat məbləğində mənfəət vergisi ödəyən “Xalq Bank”, beşinci yerdə isə 11, 5 mln. manat ilə “Bank Respublika” yer alıb.

Ən az mənfəət vergisi ödəyən bank isə Azərbaycan Sənaye Bankıdır - 1,2 milyon manat.

Siyahıdan o da məlum olur ki, Azərbaycanda fəaliyyət göstərən 22 bankdan 8-i mənfəət vergisi ödəməyib. Bu banklardan biri - "Bank BTB" zərərlə işləyib və mənfəət vergisi ödəməməsində təəccüblü heç nə yoxdur. Digərləri isə mənfəəti olan banklardır (AFB Bank, Bank Avrasiya, Bank Melli İran Bakı filialı, “Rabitəbank” və Turan-Bank).

Maraqlıdır ki, mənfəət ödəməyən banklar arasında “Azərbaycan Hava Yolları” QSC-nin (AZAL) sabiq rəhbəri Cahangir Əsgərovun “Premium Bank”ı da var. Halbuki bankın xalis və vergidən əvvəlki mənfəəti 9,1 milyon manat təşkil edib.

“Unikal”ın araşdırması zamanı aydınlaşıb ki, Əsgərovun bankı 2024-cü ildə 2 milyon 697 min manat mənfəət vergisi ödəyib. Bununla da 20 bank arasında 16-cı olub.

“Premium Bank”ın ötən il bir manat olsun belə mənfəət vergisi ödəməməsinin səbəbi açıqlanmayıb.

Məlumat üçün deyək ki, vergi ödəyicisinin gəliri (vergidən azad edilən gəlirdən başqa) ilə gəlirdən çıxılan xərci arasındakı fərq onun mənfəətidir. Mənfəətdən ödənilən vergiyə isə mənfəət vergisi deyilir. Azərbaycanda banklar üçün mənfəət vergisinin dərəcəsi 20 faiz təşkil edir. Belədə Cahangir Əsgərovun bankı 2025-ci ildə 2 milyon manatdan çox mənfəət vergisi ödəməlidir. Lakin yuxarıda da vurğuladığımız kimi açıqlanmayan səbəbdən həmin ödəniş baş tutmayıb.

Vurğulamaq yerinə düşər ki, qanunvericiliyə əsasən, bir il öncəki ilin mənfəət vergisinin ödənilməsi üçün son tarix martın 31-idir. Həmin tarix isə artıq arxada qalıb.

Xatırladaq ki, “Premium Bank” 1993-cü ildə ”AZAL Bank” adı ilə yaradılıb, 2008-ci ildə adını ”Silk Vey Bank”a dəyişib, 2018-ci ildə isə yenidən rebrendinq edib. Onun nizamnamə kapitalı 154,601 milyon manatdır. Bankın səhmdarları 84,46 % payla ”Azərbaycan Hava Yolları” QSC-nin (AZAL) keçmiş prezidenti Cahangir Əsgərov, 15,22 % payla ”VIP Aviation Services” MMC və 0,32 % payla Elvira Əhmədovadır.

Qeyd edək ki, Cahangir Əsgərov ”Premium Bank”ın əsas səhmdarına ötən ilin yazında çevrilib. Belə ki, səhmlər əvvəlcə onun həyat yoldaşı Zərifə Həmzəyevaya məxsus olub. Həmzəyeva bu ilin yanvarın 17-də vəfat etdikdən sonra onun bankdakı payı Əsgərova keçib.

Sabiq AZAL “şef”i ötən ilin noyabrında bankın rəhbərliyində gözlənilməz dəyişikliyə gedib. Belə ki, Fərhad Baxşəliyev “Premium Bank” ASC-nin İdarə Heyətinin yeni sədri təyin edilib. O, 2023-cü ilin dekabr ayından bankın Müşahidə Şurasının üzvü kimi fəaliyyət göstərib.

İdarə Heyətinin əvvəlki sədri Kamil Lətifov isə ötən il noyabrın 13-də gözlənilməz şəkildə işdən çıxmışdı. Bu barədə adıçəkilən bankdan bildirilmişdi. Aradan keçən müddətdə sədr vəzifəsini müvəqqəti olaraq sədr müavini Mahir Nəcəfov icra edib. O, bu ilin yanvar ayına qədər ”Premium Bank”ın sədri, K.Lətifov isə sədr müavini olub. Yanvarda onların yerləri dəyişdirilib. Lakin maraqlıdır ki, Lətifov sözügedən postda heç bir il çalışmayıb və işdən çıxıb. O da maraqlı idi ki, sabiq sədrin 11 aylıq rəhbərliyi dövründə “Premium Bank” böyümüşdü. Lakin Cahangir Əsgərov nəyə görəsə bankın rəhbərliyində dəyişiklik ehtiyacı hiss edib.

Mövzuyla bağlı ekspertlər bildirirlər ki, əgər bir bank zərərlə işləmədiyi halda mənfəət vergisi ödəmirsə, bunun səbəbi açıqlanmalıdır. Çünki qanunvericilikdə açıq şəkildə göstərilib ki, istənilən qurum mənfəət əldə etdiyi halda, hökmən mənfəət vergisi ödəməlidir...

***Sənan Mirzə***

13_27 IYUl-QARA.qxd 4/9/2026 10:01 PM Page 4



# ABŞ və İran vaxt qazanmaq üçün atəşkəsə razılaşıb? - Danışıqlardan sonra...

***Yaxın Şərqdə uzun müddətdir yığılan geosiyasi gərginlik 40 gün davam edən silahlı qarşıdurmaya çevrildi. Müharibənin başlanğıcı bir neçə paralel faktorun kəsişməsi ilə formalaşdı: İranın regional təsir imkanlarını genişləndirməsi və uranı zənginləşdirməsi, İsrailin təhlükəsizlik narahatlıqlarının artması və ABŞ-nin bölgədə strateji balansı qorumaq cəhdləri.***

İlkin olaraq dolayı toqquşmalar və proksi qüvvələr üzərindən aparılan mübarizənin açıq fazaya keçməsi ilə birbaşa hərbi eskalasiya baş verdi. İsrail və Amerikanın İranın hərbi infrastrukturuna yönəlmiş zərbələri və buna cavab olaraq İranın regional müttəfiqləri vasitəsilə həyata keçirdiyi hücumlar qısa müddətdə genişmiqyaslı qarşıdurmaya çevrildi.



Müharibənin ilk iki həftəsi tərəflərin intensiv zərbə mübadiləsi ilə yadda qaldı. İsrail yüksək texnoloji üstünlüyə əsaslanan hədəfli əməliyyatlar aparsa da, İranın raket və pilotsuz uçuş aparatları vasitəsilə cavab imkanları regionda ciddi təhlükəsizlik boşluqları yaratdı.

Üçüncü və dördüncü həftələrdə münaqişə daha çox "yorucu müharibə" mərhələsinə keçdi. Tərəflər birbaşa genişmiqyaslı hücumları məhdudlaşdıraraq, iqtisadi və logistik zəiflətmə strategiyasına üstünlük verdilər. Enerji infrastrukturu, nəqliyyat xətləri və hərbi təchizat zəncirləri əsas hədəfə çevrildi.

Bu mərhələdə ABŞ-nin iştirakı kritik oldu: hava hücumundan müdafiə sistemlərinin gücləndirilməsi və regional müttəfiqlərin qorunması müharibənin coğrafi genişlənməsinin qarşısını qismən aldı. Bununla yanaşı, münaqişənin qlobal enerji bazarlarına təsiri ciddi narahatlıq doğurdu.

Müvəqqəti atəşkəs: taktiki fasilə, yoxsa, strateji dönüş?

Müharibənin 6-cı həftəsində tərəflər iki həftəlik müvəqqəti atəşkəsə razılaşdılar. Bu qərar bir neçə səbəbdən irəli gəldi:

- Hər üç tərəfin resurs itkilərinin artması;
- Regional müttəfiqlərin müharibəyə daha dərindən cəlb olunma riski;
- Beynəlxalq təzyiq, xüsusilə enerji bazarlarının sabitləşdirilməsi tələbi.

Atəşkəs dövrü tərəflərə yenidən qruplaşmaq və diplomatik manevr imkanlarını genişləndirmək üçün vaxt qazandırıb.

ABŞ və İsrail istər danışıqlar, istərsə də güc vasitəsilə zənginləşdirilmiş uranın İrandan çıxarılaraq məhv ediləcəyini açıqlayıb. Ola bilər ki, Amerika xüsusi qüvvələri razılaşmanın olmayacağı halında İranda F-15E pilotunun xilas edilməsinə bənzər əməliyyat keçirib, uranı ölkədən çıxarmağa çalışacaq.

Aprelin 11-də İslamabadda başlanacaq danışıqlar münaqişənin taleyini müəyyən edə biləcək əsas platforma kimi qiymətləndirilir. Danışıqlarda İranın regional hərbi fəaliyyətlərinin məhdudlaşdırılması, İsrailin təhlükəsizlik zəmanətləri, ABŞ-nin bölgədə hərbi mövcudluğunun çərçivəsi, eləcə də sanksiyaların mərhələli şəkildə yumşaldılması ehtimalı var.

Atəşkəs dönəmində qarşı-qarşıya gələcək diplomatik nümayəndə heyətlərinin rəhbərləri də maraq doğurur. ABŞ tərəfdən danışıqlara ölkənin ikinci şəxsinin rəhbərlik edəcəyi halda, İran tərəfdən bu işi parlamentin spikeri görəcək.

Belə ki, Tehran və Vaşinqton arasında keçiriləcək danışıqlarda İslam Respublikasının nümayəndə heyətinə İslam Şurası Məclisinin spikeri Məhəmməd Baqer Qalibaf rəhbərlik edəcək. Amerikanın vitse-prezidenti Ceyms Devid Vens isə ABŞ adından Pakistanda keçiriləcək danışıqlarda iştirak edəcək.

Bununla İran diktə etdiyi şərtlərin üstünlüyü ilə bərabər, danışıqlara da üstün tərəf kimi getməyə çalışır. Danışıqlarda müxtəlif rankli nümayəndələrin iştirakı diplomatiyada bir növ aşağılayıcı amil kimi görünür.

İranın təqdim etdiyi ilk 10 bəndlik təkliflər paketi ABŞ tərəfindən qəbul edilməyib. Vens bunun ChatGPT ilə yazıldığını deyib və Vaşinqtonun onu zibil qutusuna atdığını açıqlayıb. ABŞ Tehranın ikinci təkliflər paketini qəbul edib və bunun üzərində danışıqlar aparacaq. İran tərəfi isə üçüncü bir on bəndlik maddə hazırlayaraq, məhz bunu mətbuatda yayıb. Bu səbəbdən İran tərəfi qalib və üstün tərəf kimi görünür.

Bununla belə, tərəflərin razılığa gəlmə ehtimalı mövcuddur. Lakin bu, tam və uzunmüddətli sülh sazişindən çox, mərhələli və şərti razılaşma formatında ola bilər. Çünki tərəflər arasında strateji etimadsızlıq yüksək səviyyədədir. Regional təsir uğrunda rəqabət isə davam edir.

Ən real ssenari kontrollu şəkildə gərginliyin azaldılması modelidir.

Əgər tərəflər razılığa gələrsə, hərbi əməliyyatlar dayandırılacaq və atəşkəs uzadılacaq. Enerji bazarlarında sabitlik qismən bərpa olunacaq və neft qiymətləri azalan tempdə davam edəcək. İran üzərində bəzi iqtisadi təzyiqlərin yumşaldılması mümkündür. Bundan əlavə, İsrail üçün beynəlxalq təhlükəsizlik zəmanətləri gücləndirilə, ABŞ isə bölgədə daha selektiv hərbi strategiyaya keçə bilər.

Bu halda münaqişə "dondurulmuş qarşıdurma" mərhələsinə keçəcək.

Razılaşma baş tutmasa, danışıqlar uğursuz olarsa, müharibənin yenidən başlaması ehtimalı yüksəkdir. Lakin növbəti mərhələ əvvəlkindən daha təhlükəli ola bilər. Bu halda tərəflər daha genişmiqyaslı və intensiv hücumlara keçəcək. Regional aktorların (məsələn, digər Yaxın Şərq ölkələrinin) münaqişəyə qoşulma riski artacaq və qlobal iqtisadi təsirlər, xüsusilə enerji qiymətlərinin daha kəskin şəkildə qalxması hiss olunacaq.

Bu ssenari lokal müharibədən regional müharibəyə keçid riskini artırır.

İstənilən halda bu müharibə Birləşmiş Ştatların, xüsusilə də prezident Trampın imicinə ciddi zərbə vurdu. Yalnız Hörmüz boğazından keçid sərbəst şəkildə təmin olunarsa, zənginləşdirilmiş uran İrandan çıxarılarsa və İrandakı mövcud rejim dəyişərsə, ABŞ-ni məqsədlərinə çatmış hesab etmək olar.

İran isə danışıqlardan üstün tərəf kimi çıxsa, can və mal itkilərini bərpa edib, yoluna davam edəcək və regionda daha da möhkəmlənəcək.

Lakin tərəflərin üzərində danışıqlar aparacağı təkliflər paketi hələlik məlum deyil. İran tərəfinin Vaşinqtona təqdim etdiyi 10 bəndlik təkliflə mətbuatda yaydığı tamamilə fərqlidir. Bəlkə də İran ABŞ-nin təklifləri ilə razılaşıb. Danışıqlar isə qapalı şəkildə keçiriləcək. Tərəflərin hansının masadan üstün qalxacağı yalnız sonrakı addımlarla müəyyən olunacaq.

40 günlük müharibə göstərdi ki, hərbi üstünlük belə strateji sabitliyi təmin etmir. İslamabad danışıqları tərəflər üçün yalnız münaqişəni dayandırmaq deyil, həm də yeni regional təhlükəsizlik arxitekturasının konturlarını müəyyən etmək imkanıdır.

Lakin mövcud reallıq ondan ibarətdir ki, tərəflər arasında fundamental ziddiyyətlər qalır. Buna görə də ən ehtimal olunan nəticə tam sülh deyil, idarə olunan gərginlik və periodik eskalasiya riskinin davam etməsidir.

***Ağarza Elçinoğlu***



# Vilayət Eyvazov türkiyəli həmkarı ilə görüşdü

***Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Türkiyə Respublikasının daxili işlər naziri Mustafa Çiftçi və onun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.***

”Unikal” xəbər verir ki, aprelin 9-da nazir Mustafa Çiftçi və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Sonra qardaş ölkənin təmsilçiləri Şəhidlər xiyabanındakı ”Əbədi məşəl” kompleksini və Türk Şəhidliyini ziyarət ediblər.

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov türkiyəli həmkarı və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan V.Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə cənab M.Çiftçini təbrik edib, dəvətini qəbul edərək rəsmi səfərə gəldiyinə görə təşəkkürünü bildirib.

O, iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu məmnunluqla vurğulayaraq rəhbərlik etdiyi Daxili İşlər Nazirliyinin qardaş ölkənin hüquq mühafizə orqanları ilə əlaqələrin, o cümlədən beynəlxalq əməkdaşlığın intensiv inkişafına daim önəm verdiyini qeyd edib. Bu əlaqələrin ilk növbədə qarşılıqlı hüquqi yardım, təcrübə mübadiləsi, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə dövlətlərarası müqavilələr əsasında reallaşdığı nəzərə çatdırılıb.

Nazir Azərbaycan polisinin və DİN-in Daxili Qoşunlarının respublikada ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə əldə etdiyi müsbət nəticələri də diqqətə çatdıraraq fəaliyyətin təkmilləşdirilməsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin xüsusi rolunu və xidmətlərini məmnunluqla vurğulayıb, cənab Mustafa Çiftçinin şəxsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə təşəkkür edib.

V.Eyvazov cənab Mustafa Çiftçinin Azərbaycana ilk rəsmi səfərinin əlaqələrimizin inkişafına və dərinləşməsinə müsbət təsir göstərəcəyinə əmin olduğunu bildirib.

Səmimi qəbula, ətraflı məlumata və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Türkiyənin daxili işlər naziri respublikamıza səfərindən, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən, Bakının dünyanın ən gözəl paytaxtlarından və təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu ifadə edib.

O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgün iştirak edib.

# İlham Əliyev pravoslav xristian icmasını təbrik etdi



***Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasına təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Hörmətli həmvətənlər!

Sizi - Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Azərbaycanda yüzillərdir hökm sürən tolerantlıq mühiti burada məskunlaşmış ayrı-ayrı xalqların, etiqad və inancların mənsubları arasında nümunəvi və harmonik ictimai münasibətlərin bərqərar olmasında müstəsna rol oynamışdır. Biz cəmiyyətimizdə tarixən formalaşmış etnik-mədəni müxtəlifliyi, milli-mənəvi dəyərləri və multikultural ənənələri müasir dövlətçiliyimizin unikal sərvəti kimi qiymətləndiririk.

Hazırda ölkəmizdə demokratik-hüquqi prinsiplərin təmin edilməsi, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsə, o cümlədən xristian icmasına özünəməxsus adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, xristian həmvətənlərimiz ictimai-siyasi, sosial-mədəni həyatımızda fəal iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər.

Əziz dostlar!

Dirçəlişin, yeniliyin, mərhəmət və şəfqət duyğularının rəmzi olan Pasxa bayramı hər il Azərbaycanda təntənə ilə qeyd olunur. Bir daha hər birinizə səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!".

# Türkiyənin daxili işlər naziri İlham Əliyevin qəbulunda

***Azərbaycan Prezidenti İlham Əliyev bu gün Türkiyənin daxili işlər naziri Mustafa Çiftçini qəbul edib.***



"Unikal" xəbər verir ki, qəbula görə dövlət başçısına minnətdarlığını bildirən Mustafa Çiftçi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Azərbaycan Prezidentinə çatdırıb.

Dövlət başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş edib.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslandığı vurğulandı, bütün istiqamətlər üzrə əlaqələrin genişləndiyi bildirilib.

Ölkələrimizin müvafiq qurumları arasında səmərəli tərəfdaşlığın qurulduğu qeyd edilib, bu xüsusda Azərbaycanın və Türkiyənin Daxili İşlər nazirliklərinin də uğurlu əməkdaşlığı həyata keçirdikləri vurğulanıb.

# Baş nazir məmurlarla bağlı əmr imzaladı

***Ədliyyə Nazirliyində dövlət icra məmurlarının qulluğa qəbulu ilə bağlı müsabiqənin və icbari təlimin keçirilməsi qaydası təsdiqlənib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

İcra məmuru vəzifəsi üzrə qulluğa qəbul olmaq istəyən hər bir namizədin bilik səviyyəsinin, peşə hazırlığının, ümumi dünyagörüşünün, icra məmuru vəzifəsinə yararlı və layiqli olmasının müəyyən edilməsi məqsədilə aşkarlıq şəraitində şəffaf üsullarla müsabiqə keçirilir.

Müsabiqə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" qanunu ilə müəyyən edilmiş qulluğa qəbulun şərtləri nəzərə alınmaqla keçirilir. Müsabiqə test imtahanından və söhbət mərhələsindən ibarətdir.

Müsabiqəyə Qanunla müəyyən edilmiş tələblərə cavab verən ali təhsilli şəxslər buraxılırlar. Müəyyən kateqoriyalı şəxslər müsabiqənin imtahan mərhələsindən azad edilirlər.

Müsabiqənin keçirilməsi və icbari təlim başa çatdıqdan sonra namizədlərin təyinatına dair təkliflərin verilməsi Əsasnamənin 2.1-ci bəndinə uyğun olaraq yaradılmış komissiya tərəfindən həyata keçirilir.

Naxçıvan Muxtar Respublikasının ərazisində icra məmuru vəzifəsi üzrə qulluğa qəbul bu qaydaya uyğun olaraq Naxçıvan Muxtar Respublikasının



Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

İmtahan 100 sualdan ibarətdir. Onlardan 60 sual icra məmurunun fəaliyyətində tətbiq olunan normativ hüquqi aktları əhatə edir. 40 sual isə namizədin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi bilik səviyyəsini, dünyagörüşünü və ünsiyyət bacarıqlarını müəyyən etmək məqsədi daşıyır.

# Sahibə Qafarova Litva Baş naziri ilə görüşdü

***Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Litva Respublikasının Baş naziri İnqa Ruqiniene ilə görüşüb.***



"Unikal" xəbər verir ki, bu barədə İnqa Ruqiniene "X"də paylaşım edib.

"Litva və Azərbaycan müstəqilliyin bərpası uğrunda mübarizə dövründə xalqlarımızın bir-birinə dəstək göstərməsi ilə yadda qalan həmrəylik tarixini bölüşür. Bu gün tərəfdaşlığımızı bir çox sahələr üzrə gücləndirmək və əlaqələri genişləndirmək üçün aydın imkanlar görürük. Bu da hər iki ölkənin xeyrinədir. Bu mövzuda spiker Sahibə Qafarova ilə səmərəli müzakirə apardıq", - deyə - Litva Baş naziri qeyd edib.

# Prezident ona general rütbəsi verib birinci müavin təyin etdi

***Yaşar Allahqulu oğlu Əməşov Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisinin birinci müavini vəzifəsinə təyin edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı müvafiq Sərəncam imzalayıb. Dövlət başçısının digər Sərəncamı ilə Yaşar Əməşova general-mayor ali hərbi rütbəsi verilib.

Qeyd edək ki, Y.Əməşov Milli Məclis Aparatı rəhbərinin müavini vəzifəsindən çalışırdı.

50 yaşlı Y.Əməşov 1993-1997-ci illərdə Bakı Dövlət Universitetinin Riyaziyyat fakültəsində, 2004-2008-ci illərdə Beynəlxalq hüquq fakültəsində təhsil alıb.

1997-1998-ci illərdə Cəlilabadda orta məktəbdə müəllim işləyib. 1998-2000-ci illərdə Silahlı Qüvvələrin sıralarında zabit kimi həqiqi hərbi xidmət keçib.

2000-2004-cü illərdə Azərbaycan Respublikası Milli Məclisi Aparatının məsləhətçisi, 2004-2006-cı illərdə böyük məsləhətçisi, 2006-2007-ci illərdə baş məsləhətçisi, 2007-2008-ci illərdə sektor müdiri, 2008-2018-ci illərdə şöbə müdirinin müavini vəzifələrində işləyib.

2018-2019-cu illərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İnnovativ inkişaf və elektron hökumət məsələləri şöbəsinin, daha sonra İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin baş məsləhətçisi olub.

2019-2020-ci illərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin Milli Məclislə əlaqələr sektorunun müdiri vəzifəsində çalışıb. 3-cü dərəcə dövlət müşaviridir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Bu halda atəşkəs ləğv ediləcək - İrandan çağırış

***İsrailin Livana hücumları davam edərsə, atəşkəs və ya danışıqlar olmayacaq.***

"Unikal" xəbər verir ki, bunu İran İslam Respublikası Parlamentinin spikeri Məhəmməd Baqer Qalibafın müşaviri Mehdi Məhəmmədi deyib.

Onun sözlərinə görə, bu halda raketlər uçmağa hazır olacaq: "Regiondakı yeni nizamın bir hissəsi kimi müqavimət oxunun komponentlərinin birgə taleyi tənliyi, mümkünsə xoş sözlərlə, əks halda müharibə ilə qurulmalıdır".

***Ağarza Elçinoğlu***

# Bu ay Azərbaycanın 6 şəhərində mədəni qastrol proqramı həyata keçiriləcək

***Mədəniyyət Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə ölkənin aparıcı bədii kollektivlərinin iştirakı ilə Bakı və regionları əhatə edən genişmiqyaslı mədəni qastrol proqramı çərçivəsində aprel ayının qastrol proqramı açıqlanıb.***

Bu barədə "Unikal"a Mədəniyyət Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, aprel ayında qastrol proqramı Xırdalan, Lənkəran, Sumqayıt, Xızı, Mingəçevir və Zaqatala şəhərlərini əhatə edəcək.

Məlumat üçün bildirək ki, layihə paytaxt və bölgələri vahid proqram çərçivəsində birləşdirən, ölkə üzrə geniş coğrafiyanı əhatə edən ilk sistemli mədəni qastrol təşəbbüslərindən biridir.

Proqramın məqsədi regionlarda mədəni həyatın canlandırılması, yüksək səviyyəli incəsənət nümunələrinin daha geniş auditoriyaya təqdim olunması və ölkə üzrə vahid mədəni məkanın möhkəmləndirilməsidir.

13_27 IYUl-QARA.qxd 4/9/2026 10:01 PM Page 6



# Qlobal münaqişələr fonunda nəticə verən strategiya: Azərbaycan təcrübəsi

***Müasir beynəlxalq münasibətlər sistemi dərin geosiyasi transformasiya mərhələsindən keçir. Son illərdə paralel şəkildə baş verən müharibələr və qarşıdurmalar göstərir ki, qlobal təhlükəsizlik mexanizmləri əvvəlki effektivliyini itirib, beynəlxalq hüquq normalarının tətbiqi selektiv xarakter alıb, güc amili isə yenidən əsas müəyyənedici faktora çevrilib. Bu kontekstdə uzanan və nəticəsiz qalan münaqişələr fonunda qısa müddətdə konkret nəticə ilə yekunlaşan hərbi-siyasi proseslər xüsusi analitik əhəmiyyət kəsb edir.***

Bu reallıq fonunda ortaya çıxan əsas sual ondan ibarətdir ki, niyə bəzi münaqişələr illərlə davam edir, digərləri isə qısa müddətdə həll olunur. Müşahidələr göstərir ki, burada həlledici faktor yalnız hərbi güc deyil. Əsas rol strateji baxışın dəqiqliyi, siyasi iradənin ardıcıllığı və dövlət siyasətinin uzunmüddətli məqsədlərə xidmət edən şəkildə qurulması ilə bağlıdır.

Məhz bu kontekstdə Azərbaycanın təcrübəsi ayrıca diqqət çəkir. Çünki qlobal miqyasda münaqişələrin dondurulduğu və ya uzandığı bir dövrdə Azərbaycanın yanaşması fərqli nəticə ortaya qoydu. Bu yanaşma münaqişəni mərhələli şəkildə idarə etmək deyil, onun köklü və qəti həllinə yönəlmiş strategiyanı əks etdirirdi.

Beləliklə, beynəlxalq sistemdə artan qeyri-müəyyənlik fonunda Azərbaycanın əldə etdiyi nəticə göstərir ki, düzgün qurulmuş siyasi xətt, aydın strateji məqsədlər və ardıcıl idarəetmə modeli müasir münaqişələrdə nəticəni müəyyən edən əsas amillər kimi çıxış edir. Bu model bir çox hallarda açıq şəkildə vurğulanmasa da, onun təsiri prosesin bütün mərhələlərində və yekun nəticədə aydın şəkildə hiss olunur.

Rusiya ilə Ukrayna arasında artıq dörd ildən çox davam edən müharibə klassik tükəndirmə strategiyasının müasir versiyasına çevrilib. Bu münaqişə yalnız iki dövlət arasında hərbi qarşıdurma deyil, eyni zamanda, daha geniş geosiyasi rəqabətin tərkib hissəsidir. Müharibənin uzanması göstərir ki, tərəflərdən heç biri həlledici üstünlük əldə etmək iqtidarında deyil, bu isə strateji məqsədlərin ya maksimalist xarakter daşıdığını, ya da real siyasi nəticəyə yönəlmədiyini göstərir.

İnfrastrukturun sistemli şəkildə məhv edilməsi, enerji və logistika zəncirlərinin pozulması, milyonlarla insanın həyatına təsir edən sosial-iqtisadi nəticələr bu müharibənin yalnız regional deyil, qlobal miqyasda təsirlər doğurduğunu sübut edir. Ən təhlükəli məqam isə ondan ibarətdir ki, münaqişənin bitmə perspektivi hələ də qeyri-müəyyən olaraq qalır və bu, beynəlxalq sistemdə uzunmüddətli qeyri-sabitlik yaradır.

Oxşar vəziyyət İranla ABŞ və İsrail arasında davam edən qarşıdurmada da müşahidə olunur. İlkin mərhələdə lokal eskalasiya kimi görünən proses qısa müddətdə daha geniş regional gərginliyə çevrildi. Burada diqqət çəkən əsas məqam tərəflərin birbaşa toqquşmadan yayınaraq dolayı vasitələrlə mübarizəni davam etdirməsidir. Bu isə münaqişəni nə tam müharibə mərhələsinə keçirir, nə də sülh üçün real zəmin yaradır. Nəticədə “nə müharibə, nə sülh” vəziyyəti formalaşır ki, bu da beynəlxalq münasibətlərdə qeyri-müəyyənlik faktorunu daha da gücləndirir.




Bütün bu mənzərə fonunda diqqət çəkən əsas fərq ondan ibarətdir ki, müasir dünyada əksər münaqişələr uzandığı halda, bəzi hallarda tam əks yanaşma da mümkündür. Azərbaycanın təcrübəsi göstərdi ki, düzgün müəyyən edilmiş strateji məqsədlər, ardıcıl siyasi xətt və koordinasiyalı fəaliyyət nəticəsində müharibəni illərlə davam edən prosesə çevirmədən, qısa müddətdə və köklü şəkildə həll etmək mümkündür.

Bu yanaşma faktiki olaraq münaqişənin “idarə olunması” modelindən fərqli olaraq, onun tam və qəti həllinə yönəlmiş strategiyanı ortaya qoydu. Nəticədə yalnız hərbi mərhələdə üstünlük əldə olunmadı, eyni zamanda, uzun illər davam edən problemin struktur əsasları aradan qaldırıldı. Bu isə göstərir ki, müasir beynəlxalq münasibətlər sistemində belə nəticələr nadir hallarda baş versə də, düzgün qurulmuş siyasi və strateji yanaşma ilə mümkün ola bilər.

Bu mürəkkəb geosiyasi fon daxilində Azərbaycanın 44 günlük müharibədə əldə etdiyi nəticə tamamilə fərqli yanaşmanın mümkün olduğunu nümayiş etdirir. Münaqişənin cəmi 44 gün ərzində konkret hərbi-siyasi nəticə ilə yekunlaşması təsadüfi deyil, uzun illər ərzində formalaşmış sistemli strategiyanın məntiqi nəticəsidir.

Bu prosesin əsas fərqləndirici xüsusiyyəti məqsədlərin dəqiq müəyyənləşdirilməsi və onların həyata keçirilməsi üçün bütün resursların koordinasiyalı şəkildə səfərbər olunması idi. Müharibə yalnız döyüş meydanında deyil, eyni zamanda, diplomatik, informasiya və siyasi müstəvidə paralel şəkildə aparıldı.

Bu yanaşmanı ümumiləşdirən mövqe dövlət başçısının çıxışlarında da aydın şəkildə ifadə olunurdu:

“Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar” - bu fikir müharibənin strateji və mənəvi əsasını formalaşdıran əsas tezislərdən biri kimi çıxış edirdi.

2023-cü ildə həyata keçirilən lokal xarakterli tədbirlər isə bu strategiyanın tamamlayıcı mərhələsi kimi çıxış etdi və göstərdi ki, proses ardıcıl və mərhələli şəkildə planlaşdırılıb.

Uzanan münaqişələrin əsas problemlərindən biri strateji hazırlığın fraqmentar xarakter daşımasıdır. Azərbaycanın timsalında isə bunun tam əksi müşahidə olundu. Münaqişənin aktiv mərhələsindən əvvəlki dövrdə həyata keçirilən siyasət göstərir ki, proses yalnız hərbi əməliyyatlara deyil, daha geniş dövlət strategiyasına əsaslanırdı.

Diplomatik müstəvidə mövqelərin möhkəmləndirilməsi, beynəlxalq hüquqi arqumentlərin sistemli şəkildə təqdim olunması və informasiya məkanında düzgün narrativin formalaşdırılması bu strategiyanın mühüm komponentləri idi.

Bu yanaşma dövlət başçısının prinsipial mövqeyində də öz əksini tapırdı: “Azərbaycan heç vaxt öz ərazi bütövlüyü ilə bağlı heç bir güzəştə getməyəcək”, - bu fikir illər boyu aparılan siyasətin dəyişməz xəttini müəyyən edirdi.

Bu cür ardıcıl və dəyişməz mövqe strateji hazırlığın əsas dayaqlarından biri kimi çıxış etdi.

Müasir müharibələrdə vaxt amili həlledici rol oynayır. Münaqişənin uzanması tərəflərin resurslarını tükəndirir və nəticə əldə etmə imkanlarını zəiflədir. Azərbaycanın təcrübəsində isə əksinə, prosesin maksimum dərəcədə qısa müddətdə nəticəyə yönəldilməsi müşahidə olunur.

Operativ qərarvermə mexanizmi, təşəbbüsün daim qorunması və əməliyyatların fasiləsiz davam etdirilməsi müharibənin dinamikasını müəyyən edən əsas amillərdən biri oldu.

Bu yanaşma dövlət başçısının çıxışlarında belə ifadə olunurdu: “Biz döyüş meydanında nə ediriksə özümüz edirik. Bəli, müasir silahlarla, müasir avadanlıqla, lakin Vətənimizi azad edən Azərbaycan əsgərləri və zabitləridir” - bu mesaj həm daxili auditoriyaya, həm də beynəlxalq ictimaiyyətə yönəlmiş strateji siqnal idi.

Müasir dövrdə texnologiya müharibələrin xarakterini köklü şəkildə dəyişib. Azərbaycan bu dəyişiklikləri düzgün qiymətləndirərək hərbi əməliyyatlarda yeni yanaşmalar tətbiq etdi. Bu, döyüş meydanında üstünlük yaratmaqla yanaşı, əməliyyatların daha az itki ilə və daha yüksək effektivliklə həyata keçirilməsinə imkan verdi.

Bu proses yalnız texniki modernizasiya ilə məhdudlaşmırdı. Eyni zamanda, hərbi strategiyanın dəyişən reallıqlara uyğunlaşdırılması həyata keçirilirdi.

Bu yanaşmanı tamamlayan fikir belə səslənirdi: “Müasir texnologiyalar və güclü ordu bizim əsas üstünlüyümüzdür” - bu tezis hərbi planlaşdırmanın əsas istiqamətlərindən birini müəyyən edirdi(apa).

## MM-də Azərbaycan-Türkiyə-Şimali Kipr işçi qruplarının iclası keçirilib

***Milli Məclisdə Azərbaycan-Türkiyə-Şimali Kipr Parlamentlərarası əlaqələr üzrə işçi qruplarının 3-cü iclası keçirilib.***

Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin işçi qruplarının birgə görüşündə deputatlar ölkələr arasında qarşılıqlı münasibətlərin, Türk dünyasının birliyi və parlamentlərarası əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparıblar.

İclasa sədrlik edən Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov bildirib ki, iki ölkə arasındakı əməkdaşlıq və dostluq əlaqələri hər zaman yüksək səviyyədədir. O qeyd edib ki, Azərbaycanın çətin günlərində Türkiyədəki qardaşlarının dəstəyi önəmli olub, bu, qardaşlıq və dostluq əlaqələrinin möhkəmliyini nümayiş etdirib.

Əhliman Əmiraslanov vurğulayıb ki, Şuşa Bəyannaməsi ölkələr arasındakı qardaşlıq və əməkdaşlığın rəmzidir və bu münasibətlər gələcəkdə də inkişaf etdiriləcək.

O, həmçinin, Azərbaycanın Türk qardaşlarına daim dəstək verməyə hazır olduğunu və parlamentlərarası işçi qrupunun bu istiqamətdə fəaliyyətini davam etdirəcəyini qeyd edib.

Şimali Kipr Türk Respublikası Məclisinin sədri, Şimali Kipr Türk Respublikası-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Ziya Öztürklər ŞKTR-nın Türk Dövlətləri Təşkilatına tamhüquqlu üzv olması üçün Azərbaycan və Türkiyənin böyük dəstəyi olduğunu və bu dəstəyin onların mübarizə əzmini gücləndirdiyini qeyd edib: “İnanırıq ki, Azərbaycan və Türkiyə parlamentləri, eyni zamanda, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əməkdaşlığımız gücləndiriləcək”.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım qeyd edib ki, Azərbaycanla Ermənistan arasında davamlı sülh olduğu halda, Türkiyə-Ermənistan sərhədləri də açılacaq.

## Tahir Gözel “Azərsun Holdinq”ə rəhbər təyin olundu

***Azərbaycanın aparıcı sənaye qruplarından olan “Azərsun Holdinq”in idarəetməsində strateji dəyişiklik həyata keçirilib.***

“Azərsun Holdinq”dən ”Unikal”a verilən məlumata görə, Şirkətlər Qrupunun Müşahidə Şurasının sədri vəzifəsinə Tahir Gözel təyin edilib. Bu dəyişiklik ailə biznesinin növbəti nəslə etibarını və holdinqin müasir, innovativ idarəçilik modelinə keçidini simvolizə edir.

Tahir Gözel Şeffild Universitetinin Menecment fakültəsinin və Fransa Sup de Co Universitetinin məzunudur. O, “Greentech” və digər qlobal şirkətlərə rəhbərlik etməklə yanaşı, ölkəmizdə süni intellekt və İT sahəsində ən müasir standartlara cavab verən “Proxima” şirkətinin qurucusudur.

Yeni sədr “Azərsun Holdinq”in ixrac coğrafiyasını hazırkı 40 ölkədən 60-a çatdırmağı, istehsalatda AI əsaslı optimallaşdırmanı tətbiq etməyi və “Made in Azerbaijan” brendini dünyaya tanıtmağı hədəfləyir.

O, həmçinin “Qarabağ” Futbol Klubunun rəhbəri, 6 xarici dildə sərbəst danışan iş adamıdır, ailəlidir, 3 övladı var.

13_27 IYUl-QARA.qxd 4/9/2026 10:01 PM Page 7





## Siyasi partiyalar maliyyə hesabatlarını təqdim etdi

***Azərbaycanda dövlət qeydiyyatına alınmış siyasi partiyalar 2025-ci il üzrə maliyyə hesabatlarını Mərkəzi Seçki Komissiyasına təqdim edib.***

"Unikal" xəbər verir ki, bu barədə məlumat MSK-nın saytında yer alıb.

Dövlət qeydiyyatına alınmış 26 siyasi partiyanın hamısının 2025-ci il üzrə maliyyə hesabatları qanunvericiliyin tələblərinə uyğun qaydada Komissiyanın internet səhifəsində yerləşdirilməklə ictimailəşdirilib.

Qeyd edək ki, siyasi partiyalar tərəfindən illik maliyyə hesabatları hər il aprelin 1-dən gec olmayaraq Mərkəzi Seçki Komissiyasına təqdim olunmalıdır.

## Ceyhun Bayramov pakistanlı həmkarı ilə danışdı

***Pakistanın baş nazirinin müavini və xarici işlər naziri Məhəmməd İshaq Dar regionda baş verənlərlə bağlı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla telefon danışığı aparıb.***



"Unikal" xəbər verir ki, pakistanlı nazir bununla bağlı "X" hesabında paylaşım edib.

Ceyhun Bayramov Pakistanın ilkin atəşkəsin təmin olunmasında və sülhün təşviqində rolunu yüksək qiymətləndirib.

Məhəmməd İshaq Dar isə Pakistanın bu istiqamətdə səylərini davam etdirməkdə qətiyyətli olduğunu bildirib və bu addımların uzunmüddətli sülhə töhfə verəcəyinə ümid etdiyini vurğulayıb.

Tərəflər gələcəkdə də əlaqələrin davam etdirilməsi barədə razılığa gəliblər.

## Şeyxin işdən çıxarılan oğlunun yerinə təyinat



***Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin vəzifəsindən azad edilən oğlu Məhəmməd Paşazadənin yerinə təyinat olub.***

"Unikal" Manset.aza istinadən xəbər verir ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) sədri Əfqan Cəlilovun Əmri ilə Kamil Bektaşi sədrin müşaviri təyin edilib.

K.Bektaşi bundan əvvəl "AzInTelecom" MMC-də departament direktoru vəzifəsində çalışıb.

# "Dövlət büdcəsinə yenidən baxılması mümkündür"

## Azər Badamov: "Siyasət balansı düzgün qurulmaqla əhalinin sosial rifahını daha da artırmaq və iqtisadi sabitliyi qorumaq mümkündür"

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini, deputat Azər Badamov "Unikal"a müsahibə verib. O, neftin qiymətinin artmasından əldə olunan gəlirin necə xərclənəcəyindən, ərzaq məhsullarına vergi güzəştlərinin tətbiq oluna biləcəyindən, Əmək Məcəlləsinə təklif olunan yeni dəyişikliyin iş yerlərində maaşlara necə təsir edəcəyindən və problemli kreditlərin necə həll edilə biləcəyindən danışıb.***

***-Azər müəllim, ABŞ-İran müharibəsi fonunda dünya bazarında neftin qiyməti sürətlə artıb. Məlum olduğu kimi, cari ilin dövlət büdcəsində neftin qiyməti 65 dollardan götürülüb. Hazırda isə qiymətlər büdcədə nəzərdə tutulan məbləğdən 2 dəfəyə yaxın çoxdur. Bu baxımdan neftin qiymətinin artmasından əldə olunan gəlir hansı sahələrə yönəldilə bilər?***

-ABŞ-İran gərginliyi fonunda neftin bahalaşması Azərbaycan üçün əlavə fiskal imkanlar yaradır. Bu gün qlobal bazarlarda neftin qiymətində baş verən dəyişikliklərin dinamikası sabit deyil və bu ABŞ-İran müharibəsi ilə birbaşa bağlıdır. İran Hörmüz boğazını daraltdıqda neftin qiymətinin kəskin artımı, Trampın yumşaldıcı açıqlamaları isə qiymətlərin azalmasına gətirib çıxarır. Bu baxımdan Hörmüz boğazı ilə bağlı qəti bir qərar və razılıq imzalanmadan neftin qiymətinin artmasının nə qədər yüksələ biləcəyi və bu qiymət yüksəlmələrinin nə qədər davam edə biləcəyi ilə bağlı proqnoz vermək mümkün deyil. Amma neftin qiymətində baş verən artımlar neft istehsal edən ölkələrə əlavə gəlirlər qazandırır. Azərbaycan neft ixrac edən ölkə olduğundan dövlət büdcəsi proqnozlaşdırılanda büdcədə neftin qiyməti 65 dollardan nəzərdə tutulub. Bu günün reallığı odur ki, baş verən hadisələr neftin qlobal bazarlardakı qiymətlərinin daha çox artmasına yol açıb. Azərbaycan neft gəlirlərinin ədalətli idarəedilməsi üçün Dövlət Neft Fondu yaradıb. Təbii ki, neftin satışından gələn bütün gəlirlər ilk növbədə Dövlət Neft Fonduna daxil edilir. Bununla yanaşı neftin qiymətlərinin artımında bir sabitlik yaranmamış həmin gəlirlərin yenidən bölüşdürülməsi və dövlət büdcəsinə yenidən baxılması mümkün olmur. Əgər bu artımlar davamlı xarakter alarsa, təbii ki, dövlət büdcəsinə yenidən baxılması mümkündür. Bununla yanaşı, qeyd etmək istəyirəm ki, neft gəlirlərinin artması işğaldan azad olunmuş ərazilərin bərpasının sürətlənməsinə, iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsinə və yeni sosial paketlərin icrasına fürsət qazandırır. Burada əsas məsələ gəlirin hamısını xərcləmək yox, balanslı bölüşdürməkdir.

***-Neft qiymətlərinin artması fonunda idxal olunan ərzaq məhsullarının qiyməti artır. Ölkəmizdə ərzaq məhsullarının qiymətində artımlar müşahidə olunur. Bu məhsullara vergi güzəştləri tətbiq oluna bilərmi?***

-Ərzaq qiymətlərinin artması qanunauyğun prosesdir. Çünki, Yaxın Şərqdə baş verən hadisələr fonunda Hörmüz boğazının bağlanması qlobal bazarlarda enerji qiymətlərinin sürətlə artmasına yol açıb. Biz bilirik ki, istehlak olunan bütün malların dəyərinin tərkibində enerji qiymətləri əsas rol oynayır. Bu baxımdan enerji qiymətlərinin artması qeyri-neft məhsullarının qiymətlərinin artmasını məcbur edib. Azərbaycanın daxili bazarı 100% özünü təmin etməyə keçməyib. Ölkəmizə idxal olunan malların qiymətləri qlobal bazarlardan asılıdır və ona görə qiymət artımları baş verir. Dövlət bazarlarda qiymət artımlarının əhalinin sosial vəziyyətinə təsirlərini azaltmaq üçün tədbirlər görür. Bu tədbirlər vergi güzəştləri, müəyyən malların istehsalı və idxalına subsidiyaların verilməsi və ya sosial paketlərin icrası şəklində həyata keçirilir.

***-Əmək Məcəlləsinə yeni dəyişiklik təklif olunur. Belə ki, Azərbaycanda iş yerləri cinsindən asılı olmayaraq eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə bərabər əmək haqqı ödəməyə borclu olacaq. Bu dəyişiklik maaşla bağlı hansı üstünlüklər yaradacaq?***

-Azərbaycanda gender bərabərliyi təmin olunduğundan işləyənlərin cinsinə görə aldıqları əməkhaqlarında da fərq qoyulmur. Yeni yanaşma bərabər işə bərabər maaş prinsipi üzərində qurulub. Bu həm də əmək bazarında ədalətli yanaşmanın qurulmasına töhfə verir. Yəni, qadınlar və kişilər üçün bərabər imkanlar yaradılır ki, bu da əməyə görə ödəniş sistemində fərqli yanaşmanın olmasının qarşısını alır.

***-Bank kreditləri hər zaman gündəmdə olan məsələdir. Bu il martın 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 562 milyon manat təşkil edib. Ölkədə problemli kreditlərin məbləği son 1 ildə 17% artıb. Sizcə, bu cür kreditlərin həll edilməsi üçün hansı addımların atılmasına ehtiyac var?***

-Problemli kreditlərin 562 milyon manata çatması və son 1 ildə 17 % artması ciddi siqnaldır. Belə bir problemin artmasının qarşısının alınması üçün müəyyən tədbirlərin görülməsinə ehtiyac olduğunu hesab edirəm. Məsələn, kreditlərin müddətlərinin uzadılması, faizlərin azaldılması, sosial həssas qruplar üçün dövlət dəstəyinin göstərilməsi, kreditlərin daha məsuliyyətlə verilməsi, maaşların müəyyən qədər artırılması, əhalinin maliyyə savadlılığının artırılması və s. qeyd etmək olar. Həm də hər bir vətəndaş krediti alanda onu qaytarmalı olduğunu düşünməlidir. Hazırkı neft qiymətlərinin artması və infilyasiya risklərinin yüksəlməsi hökumət üçün həm imkan, həm də çağırışdır. Təbii ki, siyasət balansı düzgün qurulmaqla əhalinin sosial rifahını daha da artırmaq və iqtisadi sabitliyi qorumaq mümkündür. Hökumətin apardığı sosial-iqtisadi siyasət balanslıdır və yuxarıda qeyd etdiyim məsələlərin həll olunmasına imkan verir.



***Anar Kəlbiyev***

# Normadan artıq məmur özbaşınalığı

## Dövlətin ayırdığı yüz milyonlarla manatı məsul vəzifəlilər hara xərcləyiblər? - Vətəndaşlardan yağış kimi yağan sual!

***Bakıda və Abşeron yarımadasında bir neçə gün fasilə ilə, ümumilikdə isə vur-tut iki gün yağan yağışlar ciddi fəsadlara gətirib çıxardı. Subasmalarla, paytaxt və ətrafının ciddi infrastruktur problemləri yaşamasını ortaya qoyan neqativ hallarla müşayiət olundu. Sinoptiklər bu yağışları “normadan artıq” kimi qiymətləndirdi, lakin həmin yağışlar eyni zamanda normadan artıq məmur biganəliyindən, özbaşınalığından da xəbər verdi!***

Əlbəttə, belə hadisələr dünyanın istənilən ölkəsində baş verə bilər və baş verir də...

Lakin unutmayaq ki, illərdir Azərbaycan hökuməti su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasına dövlət büdcəsindən yüz milyonlarla manat vəsait ayırıb. Üstəlik, eyni məqsədlərlə müxtəlif dövrlərdə beynəlxalq maliyyə qurumları, məsələn, Dünya Bankı, Asiya İnkişaf və Yenidənqurma Bankı, Almaniyanın KfW bankı və s. tərəfindən də on milyonlarla dollarlıq kreditlər ayrılıb.




Və bu qədər investisiyanın fonunda xeyli vaxtdır analoji ssenari təkrarlanmağa davam edir: regionlar bir yana, paytaxt Bakı və Abşeron yarımadası azacıq güclü yağış yağan kimi Venesiyaya çevrilir, selə təslim olur. Elə geniş ictimaiyyətin problemə baxışının kökündə də haqlı olaraq sözügedən məqam dayanır. Kimsə yağış, qar kimi təbiət hadisəsini qeyri-adi, anormal hal kimi qarşılamır.

Anormal hal ondan ibarətdir ki, illər uzunu fantastik məbləğdə pullar xərclənməsinə baxmayaraq niyə biz hər yağış yağanda küçələri, evləri su basmasının şahidi oluruq? Elə çıxmırmı ki, ya həmin pulların mühüm hissəsi təyinatı üzrə xərclənməyib, ya da təyinatı üzrə xərclənibsə belə effektiv, səmərəli xərclənməyib?

Əks təqdirdə necə ola bilər ki, hökumətin sözügedən istiqamətdə ayırdığı yüz milyonlarla manat müqabilində hələ də:

- mövcud drenaj və kanalizasiya sistemləri azacıq yüklənməyə tab gətirməsin;
- kanalizasiya xətləri baxımsız qalsın?

Biz hələ kollektorlar üzərində qanunsuz tikililərin inşa edilməsindən, ümumilikdə şəhərsalma qaydalarının pozulmasından danışmırıq.

Bütün bunları ümumiləşdirdikdə bir daha aydın olur ki, problemin kökünü yalnız NORMADAN ARTIQ YAĞINTIDA axtarmaq subyektivizm, sadəlövhlük olardı. Baş verənlərin kökündə həm də NORMADAN ARTIQ MƏMUR LAQEYDLİYİ və ÖZBAŞINALIĞI dayanır.

Məsələn, götürək aprelin 5-də yağan yağışlar zamanı Keşlə qəsəbəsinin bir hissəsini suyun basmasına səbəb olan amili - Xətai rayonu, Rəşid Bağırov 36/12b ünvanında evlərin kollektor üzərində inşasının ortaya çıxmasını! Kimlərsə nə vaxtsa şəxsi maraqlar naminə belə evlərin tikilməsinə icazə veriblər, ən yaxşı halda göz yumublar. Əlbəttə, “kimlərsə” deyərkən heç də yadplanetliləri nəzərdə tutmuruq. Uzun müddət yerli icra hakimiyyətləri boş gördükləri hər qarış ərazini pul mənbəyi görüblər, gözüyumulu satıblar və...

Və indi bu cür özbaşınalıqların, qanunsuz əməllərin fəsadlarını əlliklə yaşayırıq.

Analoji hallar Bakı və Abşeron yarımadasının, Sumqayıtın demək olar ki, əksər zonaları üçün xarakterikdir. Belədə problemi yalnız NORMADAN ARTIQ YAĞINTIda axtarmaq nə qədər doğrudur? Elə məsələ ilə bağlı ekspert rəyləri də göstərir ki, artıq hər yağış yağanda eyni mənzərəni görüb az qala təbiəti günahlandırmaq yanlış yanaşmadır, öncə problemlə bağlı düzgün diaqnoz, müayinə lazımdır ki, düzgün müalicə, yəni problemin həqiqi həlli də mümkün olsun. Məsələn, iqtisadçı Natiq Cəfərli vurğulayır: “Bakıda kanalizasiya xətləri ilə yanaşı, yağış sularının axıdılması üçün nəzərdə tutulan xətlər də mövcud idi. Ötən əsrin sonu, 21-ci əsrin əvvəlində Bakıda görməmişcəsinə tikinti işlərinə start veriləndə, yüksək mərtəbəli binaların təməlləri qazılanda, əgər yağış suları üçün nəzərdə tutulan boru xətləri maneçilik törədirdisə, onları kəsib adi kanalizasiya xətlərinə birləşdirirdilər. Görməmişcəsinə tikinti bumunun nəticəsi o oldu ki, cəmi 2 mln. əhali üçün nəzərdə tutulan kanalizasiya sistemi, indi 4 mln. əhaliyə xidmət etməli olur ki, bu da həddən artıq yüklənmə ilə nəticələnir, boru xətləri, onların diametri və buraxılış gücü bu qədər əhaliyə dözmür, bir az da yağış yağanda Bakı göllər şəhərinə çevrilir. Bundan başqa, kanalizasiya sisteminə qoşulmaq üçün texniki şərt, rüşvətlə alınan kağız parçasına çevrildi - elmi, texniki yanaşma olmadı...”

Yaxud ekoloq Qorxmaz İbrahimli qeyd edir: “Bakı şəhərinin kanalizasiya sistemi uzun illərdir ki, həm şəhərin mərkəzində, həm də ətraf rayonlarında ciddi problemlərlə üzləşir. İndi bu kanalizasiyaların düzgün işləməməsi, yağış sularının axacağı yerlər üçün bəlkə baraj belə tikilib-qurtarmayıb ki, bu problemlər ortadan qalxsın. Bakı şəhərinin həm ətraf rayonlarında, ətraf məskunlaşma yerlərində, həm də mərkəz hissələrində ciddi bir problem yaşandı. İki gün yağan yağış ciddi problem yaratdı və bu çox üzücü bir məsələdir. Bunun heç bir bəhanəsi yoxdur. Yağış yağmalıdır. Yəni başa düşmürəm, yağış yağmaması üçün nə eləməliyik? Və yaxud da yağış yağanda hərə bir vedrə alıb bir yerdə dayanmalıdırmı ki, nəsə həll eləsin? Bu məsələlər bələdiyyələrin, yerli icra hakimiyyətlərinin və müvafiq dövlət qurumlarının səlahiyyət və öhdəlikləri daxilindədir. Lakin onların işlərin düzgün qurulmaması və zəruri tədbirlərin vaxtında görülməməsi səbəbindən nəticə göz qabağındadır - şəhərdə hər yağışdan sonra eyni problemlər təkrarlanır...”

Göründüyü kimi, sadə vətəndaşlardan mütəxəssislərədək cəmiyyətin önəmli hissəsi bir az güclü yağışlar yağan kimi adi hala çevrilən subasmaları yalnız təbiətin şıltaqlığı kimi qəbul etmir, eyni zamanda bəzi aidiyyatı qurumların, məmurların işbilməzliyi, biganəliyi, şəxsi maraqları ön planda tutması ilə izah edirlər. Məsələyə əhəmiyyətli dərəcədə bu prizmadan yanaşılarsa, problemin həlli istiqamətində də real, səmərəli addımların atılmasını gözləməyə dəyər...

***Sənan Mirzə***



## Azərbaycan və Litva Baş nazirlərinin görüşü keçirildi

***Baş nazir Əli Əsədov aprelin 9-da Azərbaycanda rəsmi səfərdə olan Litvanın Baş naziri İnqa Ruqiniene ilə görüşüb.***

”Unikal” xəbər verir ki, bu barədə Nazirlər Kabineti məlumat yayıb.

Görüş zamanı Azərbaycan ilə Litva arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər iki ölkə arasında münasibətlərin uğurla inkişaf etdiyini məmnunluqla qeyd edərək, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün əlverişli imkanların mövcud olduğunu vurğulayıblar.

İqtisadi sahədə əməkdaşlığın dərinləşdirilməsi, ticarət dövriyyəsinin artırılması və investisiya imkanlarının təşviqi məsələlərinə xüsusi diqqət yetirilib. Bu kontekstdə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyəti qeyd olunub.

Nəqliyyat və logistika sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilərək, Orta Dəhliz və digər beynəlxalq nəqliyyat marşrutları üzrə qarşılıqlı fəaliyyətin genişləndirilməsi imkanları nəzərdən keçirilib.

Enerji sahəsində əməkdaşlıq imkanları da diqqət mərkəzində olub.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə edərək, Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişaf etdirilməsinin önəmini qeyd ediblər.

## Dövlət qurumlarında işləyən şəxslərin maaşı ilə bağlı yeni qərar




***Dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitləri, habelə fəaliyyətindən əldə olunan gəlirləri hesabına verilən vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin yuxarı hədləri müəyyənləşdiriləcək.***

”Unikal” xəbər verir ki, bununla bağlı Maliyyə Nazirliyinə müvafiq tapşırıqlar verilib.

Belə ki, Maliyyə Nazirliyi icra prosesində müəyyən ediləcək aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitləri, habelə fəaliyyətindən əldə olunan gəlirləri hesabına verilən vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin yuxarı hədləri ilə bağlı təkliflərini 5 ay müddətində Nazirlər Kabinetinə təqdim etməlidir.

## Tanınmış həkim vəfat etdi

***Tanınmış infeksionist-hepatoloq Kamran Nəsibov vəfat edib.***

O, uzunsürən xəstəlikdən sonra dünyasını dəyişib. K. Nəsibov uzun illər müxtəlif səhiyyə müəssisələrində yolxucu xəstəliklər üzrə həkim kimi fəaliyyət göstərib.

Qeyd edək ki, K.Nəsibov Qərbi Azərbaycan İcmasının İdarə heyətinin üzvü, Nərimanov bələdiyyəsinin sədri Təmraz Tağıyevin bacısı oğludur.

13_27 IYUl-QARA.qxd 4/9/2026 10:02 PM Page 9





## İçərişəhərdəki qala divarlarında zədələnmə ilə bağlı açıqlama

***"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən daxil olan məlumata əsasən, bu gün səhər saat 05:00 radələrində Kiçik Qala küçəsi ünvanında, 13-14 saylı bürclərin kəsişdiyi hissədə tarixi Qala divarlarının kiçik bir sahəsində aşınma müşahidə edilib.***

Bu barədə "Unikal"a "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsindən məlumat verilib.

Məlumatda qeyd olunur ki, mütəxəssislərin ilkin rəyinə əsasən, aşınmaya əsas səbəb son günlər müşahidə olunan aramsız atmosfer yağıntıları nəticəsində yaranan rütubət və təbii erroziya prosesləridir.

"Hadisə baş verdiyi andan etibarən İdarə tərəfindən dərhal operativ tədbirlər görülmüş, sözügedən ərazi tam nəzarətə götürülərək vətəndaşların təhlükəsizliyi üçün zəruri qabaqlayıcı addımlar atılmışdır. Hazırda tarixi abidənin həmin hissəsində yaranmış vəziyyətin aradan qaldırılması istiqamətində lazımi işlərin icrasına başlanılmışdır.

Tarixi irsimizin qorunması və vətəndaşların təhlükəsizliyi İdarənin fəaliyyətində prioritet məsələdir və proses daim diqqət mərkəzində saxlanılır", - məlumatda qeyd olunub.

## 50 qida obyekti cərimələndi

***2026-cı ilin ilk üç ayı ərzində Naxçıvan Muxtar Respublikasının (MR) Qida Təhlükəsizliyi Agentliyi tərəfindən muxtar respublikada 50 qida obyektinə cərimə tətbiq olunub.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, bu müddətdə ümumilikdə 68 yoxlama həyata keçirilib və əksər qida obyektlərində müxtəlif növ pozuntular aşkarlanıb.

Yoxlamaların 28-i ictimai iaşə müəssisələrində, 12-si topdan və pərakəndə satış obyektlərində, 5-i ilkin istehsal və istehsal sahələrində, 3-ü ət satışı obyektlərində, 2-si məktəb bufetlərində, 3-ü apteklərdə, 15-i isə emal müəssisələrində aparılıb.

Aparılan nəzarət tədbirləri zamanı ən çox pozuntuların emal müəssisələri və ictimai iaşə obyektlərində qeydə alındığı bildirilib.

Aşkarlanan nöqsanlarla bağlı qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görülüb. Həm planlı, həm də plandankənar yoxlamaların nəticəsi olaraq 50 qida obyekti barəsində İnzibati Xətalar Məcəlləsinə uyğun inzibati tənbehvermə qərarı qəbul edilib.

## İki kollecdə yeni təyinatlar

***Şəki və Gəncə kolleclərinə yeni rəhbər təyinatları olub.***

"Unikal" xəbər verir ki, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin müvafiq əmri ilə Günel Mustafayeva Şəki Dövlət Regional Kollecinin tədris işləri üzrə direktor müavini, Xəyal Poladov isə Gəncə Regional Kollecinin tərbiyə işləri üzrə direktor müavini vəzifəsinə təyin olunublar.

# Direktor təyin etdiyi şəxsdən Vüqar Qurbanova ittiham

## TƏBİB-in sabiq rəhbəri həm də yanlış və şübhəli kadr seçimlərinin qurbanı olub? - Sensasiyalı detallar

***Respublika Perinatal Mərkəzinin sabiq direktoru Mehriban Abbasquliyeva bu tibb müəssisəsində 7 körpənin öldüyü yanğınla bağlı açılmış cinayət işi üzrə məhkəmənin növbəti iclasında sensasiyalı fikirlər səsləndirib. O, adıçəkilən Mərkəzdə təhlükəsizliklə bağlı tələblərin yerinə yetirilməməsində faktiki olaraq TƏBİB-in sabiq rəhbərliyini günahlandırıb.***

"Mən Perinetal Mərkəzin rəhbərliyinə gələndə buradakı problemlərlə bağlı tanış oldum. Təhlükəsizliklə bağlı qüsurları TƏBİB-ə yönləndirdim. TƏBİB-ə iki dəfə yazılı, neçə dəfə də şifahi məlumat vermişəm. Siqnalizasiyanın özü 2009-cu ilin dekabrından, müəssisə açılandan işləmirdi. Mərkəzin rəhbərliyində çalışdığım 11 ay ərzində əlimdən gələni etmişəm ki, problemləri aradan qaldırım" deyən Abbasquliyeva hansısa avadanlıq almağa səlahiyyətinin olmadığını, bunun ancaq mərkəzləşmiş qaydada həyata keçirildiyini deyib. Sitat: "Siqnalizasiyanın problemi ilə bağlı TƏBİB-ə bildirəndə mənə dedilər ki, növbəti ilin büdcəsində bu problem nəzərə alınacaq..."



Xatırladaq ki, 2024-cü ilin yanvarın 9-da "Respublika Perinatal Mərkəzi" PHŞ-nin inzibati binasında yanğın baş verib. Yanğın nəticəsində 7 yenidoğulmuş ölüb, 4 nəfər xəsarət alıb, müəssisəyə isə ümumilikdə 361 min manat məbləğində maddi ziyan vurulub. Mehriban Abbasquliyeva isə 2022-ci ilin dekabrında sözügedən tibb müəssisəsinə direktor təyin edilib. Araşdırmalar zamanı bu təyinatdan sonra müəssisənin tibbi təminat resursları və potensialını nəzərə almadan xəstə qəbulu sayının iki dəfəyədək artırılmasına, beləcə müəssisənin elektrik təsərrüfatının artıq yüklənərək sonda yanğına səbəb olmasına əsaslı şübhələr müəyyən edilib.

Eyni zamanda istintaqla, Fövqəladə Hallar Nazirliyi tərəfindən Mərkəzdə yoxlamalar aparılaraq yanğın təhlükəsizliyi qaydaları, xüsusən də, mövcud avtomatik yanğın xəbərverici siqnalizasiya qurğusunun nasazlığı, daxili yanğın su kranlarının işlək olmaması və elektrik təsərrüfatında nöqsanların olması Mərkəzin rəhbərliyinə bildirilsə də, direktor və Mərkəzin Anesteziologiya, reanimasiya və intensiv terapeya şöbəsinin müdiri Hamlet Mustafayev və Dəstək Xidmətləri şöbəsinin müdiri Elnur Əhmədlinin nöqsanları aradan qaldırmamalarına əsaslı şübhələr müəyyən edilib.

Hazırda Mərkəzin direktoru vəzifəsində işləmiş Mehriban Abasquliyeva Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 225.3-cü (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri, həmin mərkəzin şöbə rəisləri vəzifəsində işləmiş Hamlet Mustafayev və Elnur Əhmədli isə Cinayət Məcəlləsinin 225.3-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək onlara həmin maddələrlə nəzərdə tutulan ittiham elan olunub.

Lakin M.Abbasquliyeva son məhkəmə iclasında sualları cavablandırarkən adıçəkilən Mərkəzdə təhlükəsizlik problemləri ilə bağlı məsuliyyəti TƏBİB-in üzərinə qoyub. Onun direktorluğu Vüqar Qurbanovun TƏBİB-ə rəhbərlik etdiyi dövrə düşür. Daha doğrusu, Abbasquliyevanı həmin vəzifəyə elə Qurbanov gətirib, hətta kollektivə şəxsən təqdim edib. "Unikal"ın araşdırması zamanı məlum olub ki, bununla bağlı iclasda TƏBİB-in sabiq rəhbəri Respublika Perinatal Mərkəzində xidmət keyfiyyətinin yüksəldilməsi, ana və uşaq sağlamlığının təmin olunmasına diqqətin artırılması, pasiyent məmnunluğunun təmin edilməsi üçün müvafiq tapşırıqlar da verib. Nəticə isə göz qabağındadır.

Ümumiyyətlə, Vüqar Qurbanovun mühüm tibb müəssisələrinin rəhbərliyinə təyinatlar zamanı kadr seçimi əksər hallarda ürəkaçan olmayıb. Yeni Respublika Perinatal Mərkəzi istisna deyil. Götürək elə Respublika Endokrinoloji Mərkəzinin (REM) direktoru vəzifəsinə Nərmin İsmayılovanı təyin etməsini... Bu təyinatın üstündən cəmi 2 il keçmiş sözügedən Mərkəzdə ciddi korrupsiya faktları aşkarlandı. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi REM-də yoxlamalar apardı, ortaya çıxarılan ciddi nöqsanlar səbəbindən Mərkəzin direktoru Nərmin İsmayılova, inzibati işlər üzrə direktor müavini Vəfa Kərimova, baş həkim Ülviyə Əhmədova və digər şəxslər məsuliyyətə cəlb olundu, toplanmış ilkin sübutlar əsasında Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 312-1.1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri)) maddələri ilə cinayət işi başlandı. Və bundan sonra Qurbanov öz kadrını - N.İsmayılovanı direktor postundan uzaqlaşdırmalı oldu.

Xatırladaq ki, TƏBİB-in sabiq rəhbəri bu ilin fevralında vəzifəsindən uzaqlaşdırılıb. Qərar rəsmən elan olunsa da, səbəbləri barədə ictimaiyyətə geniş açıqlama verilməyib. Qurbanov özü isə Müşahidə Şurasının qərarını "normal qarşıladığını" bildirməklə kifayətlənib. Elə cəmiyyət də Qurbanovun işdən azad edilməsini normal qarşılayıb. Burada sürpriz heç nə yoxdur. Onun rəhbərliyi altında fəaliyyət göstərdiyi dövrdə TƏBİB-lə bağlı çoxsaylı iddia və ittihamlar səslənib. Sözügedən iddia və ittihamların arealı kifayət qədər genişdir. İlk sırada isə korrupsiya şübhələri gəlir. Əslində buna şübhə demək də doğru sayılmazdı.

"Unikal"ın əldə etdiyi məlumata görə, 2025-ci ilin sentyabrında Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən TƏBİB-də yoxlamaların aparılması ilə bağlı məlumatlar yayılmışdı. Vüqar Qurbanovun da vəzifədən azad olunmasının sözügedən yoxlamaların nəticəsilə əlaqəli olması istisna olunmur. İddialara görə yoxlamalar nəticəsində maliyyə pozuntuları aşkarlanıb. Burada söhbət milyonlarla vəsaitin mənimsənilməsindən gedirdi.

Yəqin ki, TƏBİB-in sabiq rəhbərinin işdən uzaqlaşdırılmasında həm də onun yuxarıda haqqında bəhs etdiyimiz yanlış kadr seçimlərinin də rolu olub. Hansı ki, bu seçimlər hətta faciəvi nəticələrə də gətirib çıxarıb. Eyni zamanda indi onun keçmiş kadrlarından birinin - Respublika Perinatal Mərkəzinin sabiq direktorunun faciəvi yanğınla bağlı həm də dolayı yolla olsa belə TƏBİB-i günahlandırması ibrətamizdir. Bu, Qurbanovun zamanında adıçəkilən qurumda sözün həqiqi mənasında xaos və başıpozuqluq hökm sürdüyünün növbəti əyani təsdiqi sayıla bilər...

***Toğrul Əliyev***

13_27 IYUl-QARA.qxd 4/9/2026 10:02 PM Page 10



# Sabiq deputatdan Rusiyada 50 milyon manatlıq növbəti həmlə

## Azərbaycandakı şirkətləri vətəndaşlarda narazılıq yaradan Əsabil Qasımov ölkədən kənarda həm diqqətli, həm də səxavətlidir - İlginc təfərrüatlar

***Sankt-Peterburqda yerləşən “Nikolskie Ryadı” kompleksinin yeni sahibi azərbaycanlı iş adamı, sabiq deputat Əsabil Qasımov olub.***

Bildirilir ki, alınmış kompleksin balansında iki otel və şəhərin mərkəzində yerləşən bərpa olunmuş binada kommersiya daşınmaz əmlakı var.

Aktivin alıcıları Şamama Qasımovaya məxsus “Sanatoriy İstoçnik” MMC (60%) və Taleh Qasımova məxsus “Ekspo” MMC (40%) olub. Şirkətlər azərbaycanlı iş adamı, aqrar yönümlü “Karat Holding”in rəhbəri Əsabil Qasımovla əlaqəlidir (Banker.az).

Sövdələşmə 2025-ci ildə baş tutub və Sankt-Peterburqda mehmanxana daşınmaz əmlakı seqmentində ən iri müqavilə olub. Qeyd olunan aktivlər üçün Qasımov 3-3,5 milyard rubl (təxminən 51-59,5 milyon manat) ödəyib. Daha əvvəl “Nikolskie Ryadı” Andrey Yakuninə məxsus “Venture Investment and Yield Management” fondunun aktivlərinə daxil idi. Obyektlərin ümumi sahəsi 27,9 min kvadratmetr təşkil edir. 1789-cu ildə inşa edilmiş keçmiş Nikolsk bazarının binası 2010-cu ildə 420 milyon rubla (təxminən 7,1 milyon manat) alınmışdı.



Xatırladaq ki, bir müddətdr Rusiyadakı biznesini davamlı şəkildə genişləndirən sabiq deputat indiyədək adıçəkilən ölkəyə yüz milyonlarla dollar investisiya qoyub. Qasımov xüsusilə də Yessentuki, Kislovodsk və Jeleznovodskda böyük sanatoriyalara sahibdir. O, hələ bir neçə il öncədən Rusiyada bir neçə sanatoriyaya sahib olub.

Eks-deputata məxsus “Karat-Holdinq” hələ 2016-cı ilin iyun ayında Yesentukidə ümumi sahəsi 26,3 min kvadratmetr olan “İstoçnik” sanatoriyası açıb. 340 çarpayılıq “İstoçnik ”də mədə-bağırsaq , tənəffüs , dayaq-hərəkət sistemləri, ürək-damar, dəri xəstəlikləri, şəkərli diabet xəstəliklərinin profilaktikası və müalicəsi aparılır. Əsabil Qasımovun bu layihəyə 1,5 milyard rubl həcmində investisiya qoyduğu bildirilir.

Bundan əlavə, “Karat-Holdinq” şəhərin mərkəzində oxşar profilli ”İstoçnik Jeleznovodsk” sanatoriyası tikib. İstirahət mərkəzi 2021-ci ilin sonuna kimi istifadəyə verilib və 420 nəfərə qədər qonaq qəbul edə bilər. Bu layihəyə də sabiq deputat təxminən 2 milyard rubl investisiya qoyub. Şirkət hələ 2017-ci ildə Kislovodsk şəhərində yerləşən ”Akademiçeskiy” sanatoriyasına 25 milyon dollar sərmayə yatırıb.

Ə.Qasımovun ümumi sahəsi 9 hektar olan üç torpaq sahəsi üçün həmin ilin fevralında müqavilə bağlayıb. Vurğulanıb ki, həmin vəsaitə 600 otaqlı və 1200 çarpayılıq üç sanatoriyanın tikintisi nəzərdə tutulub.

Sabiq deputatın Rusiyada biznesi yuxarıda sadalananlarla kifayətlənmir. Şirkət Moskvanın cənubundakı Taqanski rayonunun Böyük Poluyaroslavk döngəsində yerləşən və ”Vasili Osipoviç Krasavin və qardaşları” ticarət birliyinə məxsus binanı demontaj edirdi. Onun yerində sahəsi 11,3 min kvadrat metr olacaq apartament tipli mehmanxana tikilib.

Paralel olaraq, Qasımovun ”Karat Holdinq”i Moskvanın Nikoloyamskaya 11 küçəsində yerləşən ”Bernikov” biznes mərkəzini 1,47 milyard rubl (21,3 milyon dollar) qarşılığında satın alıb. Rusiya paytaxtının mərkəzində yerləşən və 17 min kvadrat metr sahəni əhatə edən biznes-mərkəzinin yeni sahibi tərəfindən 200-250 nömrəlik otelə çevriləcəyi açıqlanmışdı.

Həmçinin, sabiq deputat Moskva vilayətində yerləşən Podolsk çörək və un məmulatları zavodunun da əsas səhmdarıdır.

O da maraqlıdır ki, Rusiyada kifayət qədər səxavətlə və yerli qanunlara olduqca hörmətlə yanaşan Qasımovun şirkətləri Azərbaycanda vətəndaşları mütəmadi olaraq narazı salmaqla məşğuldur. Ölkənin iri un istehsalçılarından (və inhisarçılarından!) sayılan sabiq deputat sözügedən məhsulun süni şəkildə bahalaşdırılması ilə bağlı tez-tez ictimaiyyətdə və mediada tənqid hədəfinə çevrilir.

Bundan başqa, ona məxsus olan tikinti şirkətləri barədə şikayətlərin də sayı-hesabı yoxdur. Məsələn, bir neçə il öncə eks-deputatın MTK-sı Nəsimi rayonu Mikayıl Rəfili küçəsi 17 ünvanda yerləşən binanın sakinlərinin evini zorla sökməsi səbəbindən vətəndaşların ciddi narazılığı ilə qarşılaşmışdı. Həmin ünvanda yaşayan sakinlər bildirmişdilər ki, evdə olmadıqları vaxtda deputata aid olan ”Karat” MTK şirkətinin işçiləri onların mülkünü dağıdırlar. 60 yaşlı Quliyev Aydın İmran oğlu evdən çıxan kimi, evinin söküldüyünü görüb. Sitat: “Bu yaşımda başıma belə bir “oyun” açacaqlarını gözləmirdim. Evimi sökməklə məni öldürdülər”.

Yaxud, iki il əvvəl sabiq deputatın şirkəti bu dəfə Bakının Kubinka deyilən ərazisində sakinlərin haqqını tapdamışdı. Belə ki, Nəsimi rayonu, Cəlil Məmmədquluzadə küçəsi, dalan 1 sakinlərinin dediyinə görə, bu ərazini Əsabil Qasımov ələ keçirib. Ona məxsus ”Vialon” MMC heç kimə məhəl qoymadan sözün əsl mənasında adamların evlərini başlarına uçurdur. “Tikinti firması sənəddə Əsabil müəllimin qardaşı Vüqar Qasımovun adınadır. Vüqar Qasımov qardaşına arxalanaraq başının dəstəsi ilə insanların haqqına girir, onlarla kobud rəftar edir” - sakinlər yerli mediaya bildirmişdilər.

Belə faktların sayını kifayət qədər artırmaq olar. Lakin elə yuxarıda göstərilənlərdən də aydındır ki, Rusiyada yerli qanunlarla hesablaşan, kimsəni incik salmayan sabiq deputat öz ölkəsində həm qanunlardan çox rahatca kənara çıxa bilir, həm də Rusiyada yüz milyonlarla dolları böyük səxavətlə xərclədiyi halda öz ölkəsinin vətəndaşlarının halal mülkiyyətlərini dəyər-dəymızinə ələ keçirməyi üstün tutur.

Bəs bunun səbəbi nədir, görəsən? Düşündürücü sualdır və cavabını axtarmağa dəyər...

***Toğrul Əliyev***



# Fuad Muradov Eldar Tağıyevin medalını təqdim etdi

***Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Ukrayna Azərbaycanlıları Radasının İdarə Heyətinin üzvü, Ukraynanın Dnepr şəhərində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatının rəhbəri Eldar Tağıyevi qəbul edib.***

”Unikal” xəbər verir ki, komitə sədri xaricdəki Azərbaycan icmalarının, soydaşlarımızın Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqətində olduğunu vurğulayıb. Soydaşlarımızın yerli cəmiyyətə sıx inteqrasiyasını, Azərbaycan həqiqətlərinin təbliği, zəngin mədəni irsimizin və mədəniyyətimizin tanıdılması istiqamətindəki fəallığını yüksək qiymətləndirib. Ölkələr arasında qarşılıqlı münasibətlərin inkişafında diasporun əhəmiyyətli rol oynadığını qeyd edib və gələcək fəaliyyətlə bağlı tövsiyələrini nəzərə çatdırıb.

Sonra Eldar Tağıyevə ”Diaspor fəaliyyətində xidmətə görə” Azərbaycan Respublikasının medalı təqdim edilib.

Soydaşımız fəaliyyətinə verilən yüksək qiymətə görə Azərbaycan dövlətinə dərin minnətdarlığını bildirib. O, gələcəkdə də ölkələr arasında ikitərəfli münasibətlərin inkişafı, diasporumuzun fəaliyyətinin daha mütəşəkkil olması naminə səylərini əsirgəməyəcəyini söyləyib.

Məlumat üçün bildirək ki, Eldar Tağıyev Ukrayna Azərbaycanlıları Radasının yaradılmasında fəal iştirak edib.

# Məcnun Məmmədov “Yüksəliş” müsabiqəsinin qalibləri ilə görüşdü

***Kənd təsərrüfatı naziri Məcnun Məmmədov Mentorluq Proqramı çərçivəsində beşinci “Yüksəliş” müsabiqəsinin qalibləri İbrahim Məmmədov və İrşad Əsgərxanlı ilə görüşüb.***



Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən ”Unikal”a bildirilib ki, görüşdə Mentorluq Proqramı çərçivəsində əməkdaşlığın əsas istiqamətləri, qaliblərin mövcud bilik və bacarıqlarının daha da inkişaf etdirilməsi, onların potensialının düzgün istiqamətləndirilməsi və real nəticələrə çevrilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Eyni zamanda, iştirakçıların gələcək inkişaf prioritetləri, peşəkar hədəfləri, idarəetmə bacarıqlarının təkmilləşdirilməsi və proqram müddətində qarşılıqlı əməkdaşlığın səmərəli təşkili məsələləri müzakirə olunub.

“Yüksəliş” müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə təsis olunub. Müsabiqə qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı və özünüinkişaf üçün 20 min manat məbləğində pul mükafatı əldə edirlər.

Qeyd edək ki, Prezident İlham Əliyev tərəfindən sayca altıncı “Yüksəliş” müsabiqəsinin keçirilməsi ilə bağlı 2025-ci il dekabrın 10-da Sərəncam imzalanıb.

13_27 IYUl-QARA.qxd 4/9/2026 10:02 PM Page 11



## Müəllim işinə düzəldəcəyi adı ilə dələduzluq edən şəxsə hökm oxundu



***Bakıda orta məktəbə müxtəlif ixtisaslar üzrə müəllim vəzifəsinə işə düzəldəcəyi ilə bağlı yalan vəd verərək dələduz etməkdə təqsirləndirilən Zaur Mustafayevin cinayət işi üzrə məhkəmə yekunlaşıb.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Azər Tağıyevin sədrliyi ilə keçirilən prosesdə ona hökm oxunub.

Hökmə əsasən, Zaur Mustafayev 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, dövlət ittihamçısı Vüsal Mehrəliyev məhkəməyə təqsirləndirilən şəxsin 9 il müddətinə azadlıqdan məhrum edilməsini təklif etmişdi.

Xatırladaq ki, cinayət işində ümumi ziyanın miqdarı 200 mindən çoxdur. Təqsirləndirilən şəxslər zərərçəkənlərə vəd verib ki, onları orta məktəbə müxtəlif ixtisaslar üzrə müəllim vəzifəsinə işə düzəldəcək.

Təqsirləndirilən şəxs Zaur Mustafayev isə Bakı şəhərində 116 saylı orta məktəbdə müəllim işləyib.

Qeyd edək ki, ona qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq etmə) maddəsi ilə ittiham irəli sürülüb.

***Orxan Rasifoğlu***

## Nəqliyyat sektoruna investisiyalar artıb



***Azərbaycanda nəqliyyat və anbar təsərrüfatı sektoru üzrə 2026-cı ilin ilk aylarında da statistik göstəricilərdə artım qeydə alınıb.***

RİNN-dən "Unikal"a verilən məlumata görə, fevral ayının sonuna olan məlumata əsasən, nəqliyyat və anbar sektorunun ÜDM-də payı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə artaraq 7,5%-ə çatıb. Qeyri-neft/qaz ÜDM-də də artım müşahidə olunub və sektorun payı 10,3% təşkil edib.

Sahədə yaradılan əlavə dəyər də yüksəlməkdə davam edir. Yanvar-fevral aylarında bu göstərici 1 milyard 381 milyon 900 min manata çatıb. Bu, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 2,4% və ya 105.7 milyon manat artım deməkdir. Sektor üzrə ümumi gəlir isə 2 milyard 267 milyon 200 min manat olub.

İnvestisiya qoyuluşu nəqliyyat sektorunun inkişafında əsas amillərdən biri olaraq qalır. Yanvar-fevral aylarında sahəyə yönəldilən investisiyaların həcmi 606.6 milyon manat olub. Yəni real ifadədə 12,1% artım olub.

Ümumilikdə nəqliyyat və anbar təsərrüfatı sektorunda qeydə alınan müsbət dinamika ölkənin logistika imkanlarının gücləndiyini və regional nəqliyyat qovşağı kimi mövqeyinin möhkəmləndiyini göstərir.

## Azərbaycanda 200-dən çox kişi arvadının soyadını götürüb



***Azərbaycanda bu ilin ilk 3 ayında 6 kişi nikaha daxil olan zaman həyat yoldaşının soyadını qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə "Report"a Ədliyyə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, 2025-ci ildə 52, 2024-cü ildə 62, 2023-cü ildə isə 109 kişi nikaha daxil olan zaman həyat yoldaşının soyadını qəbul edib.

# Azərbaycanın sığorta oliqarxlarına milyonlarla manatlıq şok

## Vətəndaş şikayətləri səngimir, yığımlar azalır, bazar kiçilir - Bəs nə etməli?

***Azərbaycanın bir neçə tanınmış sığorta şirkəti ümumilikdə külli miqdarda zərər edib. Bu sırada ilk yerlərdən birində "AtaSığorta" ASC-nin sığorta yığımlarında ciddi azalma qeydə alınıb.***

Belə ki, 2026-cı ilin ilk 2 ayında şirkət cəmi 2 min manat sığorta yığımı həyata keçirib. Ötən ilin eyni dövründə bu göstərici 1 milyon 702 min manat olub. Nəticədə illik müqayisədə yığımlar 1 milyon 700 min manat və ya 99,88% azalıb.

Ödənişlərə gəldikdə isə, cari ilin ilk iki ayında şirkət 1 milyon 345 min manat ödəniş edib. Ötən ilin eyni dövründə bu rəqəm 687 min manat təşkil edib. Bu isə illik müqayisədə 658 min manat və ya 95,77% artım deməkdir. Valyuta.az yazıb ki, yığımların kəskin azalması fonunda ödənişlərin artması şirkətin zərərliliyinə birbaşa təsir göstərib.

Belə ki, 2026-cı ilin yanvar ayında şirkət hər 100 manat yığımın 67,25 manatını ödənişlərə yönəldib. Ötən ilin eyni dövründə bu göstərici 40,36 manat olub.

Cari ilin yanvar-fevral aylarında "Meqa Sığorta" ASC-nin də sığorta yığımlarında azalma müşahidə olunub. Hesabat dövründə şirkət 5 milyon 285 min manat sığorta haqqı toplayıb. Ötən ilin eyni dövründə isə bu göstərici 5 milyon 335 min manat təşkil edib. Bu, illik müqayisədə yığımların 50 min manat və ya 0,93% azalması deməkdir.




"Meqa Sığorta" ASC-nin ödənişlərinə gəldikdə isə, şirkət cari ilin ilk iki ayında 2 milyon 560 min manat sığorta ödənişi həyata keçirib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 300 min manat və ya 13,27% artım anlamına gəlir. Qeyd edək ki, 2025-ci ilin yanvar-fevral aylarında şirkətin sığorta ödənişləri 2 milyon 260 min manat olub. Beləliklə, yığımların azalması fonunda ödənişlərin artması "Meqa Sığorta"da zərərliliyin yüksəlməsinə səbəb olub.

Bildirək ki, cari ilin ilk iki ayında şirkət hər 100 manat yığıma qarşılıq 48,48 manat ödəniş etdiyi halda, ötən ilin eyni dövründə bu göstərici 42,36 manat təşkil edib.

"Qala Həyat" Sığorta Şirkəti ASC-nin də 2026-cı ilin yanvar-fevral aylarında sığorta haqlarında azalma olduğu məlum olub. Mərkəzi Banka istinadən xəbər verilir ki, şirkətin sığorta haqları 2025-ci ilin eyni dövrü ilə müqayisədə 4 milyon 915.16 mln. manatdan 4 milyon 789.80 mln. manata qədər düşüb və illik müqayisədə 2,6% azalıb. 2025-ci ilin yanvar-fevral dövründə 148.71 min manat olan ödənişlər 2026-cı ilin eyni dövründə 497.52 min manata yüksələrək 3.3 dəfə artıb.

"Qala Sığorta" ASC-nin 2026-cı ilin yanvar-fevral ayı üzrə yığım və ödəniş üzrə hesabatından isə bu il şirkətin yığımlarında kəskin azalma müşahidə olunduğu aydınlaşıb. Belə ki, şirkət yanvar-fevral ayında 8.553 mln manat həcmində sığorta haqqı toplayıb. Bu da 2025-ci ilin eyni ayı ilə müqayisədə 10.676 mln manat və ya 56% azalma deməkdir. Ötən ilin eyni dövrünə həmin göstərici 19.229 mln. manat təşkil etmişdi.

Ümumiyyətlə isə 2026-cı ilin yanvar ayında Azərbaycandakı 16 sığorta şirkətinin xətti ilə 156 milyon 604 min manat sığorta haqqı toplanılıb ki, bu da illik müqayisədə 4.3% azalıb. Azərbaycan Mərkəzi Bankının rəqəmlərinə görə, sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 30.2% çoxalaraq 62 milyon 12 min manat təşkil edib. Ötən ilin eyni dövründə sığorta yığımlarının həcmi 163 milyon 658 min manat, sığorta ödənişlərinin həcmi isə 47 milyon 623 min manat olub.

Cari ilin yanvar-fevral aylarında Azərbaycanda icbari sığorta növlərinin hesabına 43,126 milyon manat sığorta haqqı toplanılıb ki, bu da 2025-ci ilin eyni dövrü ilə müqayisədə 29,4 % azdır. Eyni dövrdə 16 sığorta şirkətinin xətti ilə ümumən 277,562 milyon manat sığorta haqqı toplanılıb. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 % azdır.

Yuxarıda göstərilənlər son zamanlar Azərbaycandakı sığorta şirkətlərindən vətəndaş şikayətlərinin və narazılıqlarının artması fonunda baş verir. Belə çıxır ki, ilin ilk iki ayında həm ayrı-ayrı məşhur sığorta şirkətlərinin yığımında, həm də ümumi sığorta bazarında azalmaya bir az da bu sektorun uzun illərdən bəridir müştəri məmnuniyyətini və inamını daha yüksək səviyyəyə qaldırmaqda çətinlik çəkməsinin nəticəsidir. Bir müddət əvvəl də yazmışdıq: "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası"nda əsas prioritetlərdən biri də sığorta sektorunun dayanıqlığının daha da gücləndirilməsidir. Strategiya sənədinə əsasən, sığorta sektoru üzrə vasitəçi və satış kanallarının (sığorta agentləri və brokerləri daxil olmaqla) genişləndirilməsi, könüllü və icbari sığortanın təşviqi, sığorta məlumat və monitorinq mərkəzinin yaradılması, eləcə də korporativ idarəetmənin gücləndirilməsi və risk əsaslı prudensial tənzimləmənin həyata keçirilməsi məsələləri nəzərdə tutulub. Hazırda 2026-cı ildir, sözügedən strategiyanın əhatə etdiyi son ilin üç ayı arxada qalıb, lakin belə görünür ki, Azərbaycanda sığorta xidmətlərindən narazılıqlar nəinki səngimir, əksinə güclənir. Bu isə bir sıra sığorta şirkətləri barədə qanunvericilik çərçivəsində daha sərt tədbirlərin görülməsini qaçılmaza çevirə bilər...

***Toğrul Əliyev***

13_27 IYUI-QARA.qxd 4/9/2026 10:02 PM Page 12



**5.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Müharibə cinayətləri dünyaya çatdırılmalıdır!

***44 günlük Vətən müharibəsinə gedən yolun mühüm mərhələlərindən biri də 2016-cı ilin aprel döyüşləridir. Bu günlərdə aprel döyüşlərinin 10 ili tamam oldu.***

2016-cı ilin 2 aprel tarixindən başlayaraq 5 aprelə qədər davam edən bu döyüşlər tariximizə əbədi həkk olunub.

Aprel döyüşləri Azərbaycan Ordusunun gücünü, döyüş qabiliyyətini və torpaqların azad olunması istiqamətində qətiyyətini açıq şəkildə nümayiş etdirib.

2016-cı ilin aprel ayında cəbhə xəttində baş verən toqquşmalar Ermənistan silahlı qüvvələrinin növbəti təxribatlarına cavab olaraq başlanıb. Azərbaycan Ordusu qısa müddət ərzində uğurlu hərbi əməliyyatlar həyata keçirərək strateji əhəmiyyətə malik bir sıra yüksəklikləri və yaşayış məntəqələrini azad ediblər. Lələtəpə yüksəkliyinin azad olunması xüsusilə mühüm hərbi və psixoloji üstünlük yaradaraq ordunun gələcək əməliyyatları üçün əlverişli şərait formalaşdırıb.

Bu qələbə xalqda böyük ruh yüksəkliyi yaradaraq torpaqların işğaldan azad olunacağına inamı daha da gücləndirdi.

Amma unutmayaq ki, bu döyüşlər zamanı da Ermənistan tərəfinin mülki əhaliyə qarşı hücumları və yaşayış məntəqələrini atəşə tutması beynəlxalq humanitar hüququn pozulması kimi qiymətləndirildi. Bu faktlar bir daha göstərirdi ki, münaqişə zamanı Ermənistan tərəfi beynəlxalq hüquq normalarına əməl etmir.

Aprel döyüşləri 44 günlük Vətən müharibəsinin bir növ başlanğıcı, onun hərbi və mənəvi təməlini təşkil edən mühüm mərhələsi sayılır. Bu döyüşlər nəticəsində əldə edilən təcrübə, ordunun döyüş ruhu və cəmiyyətin birliyi 2020-ci ildə qazanılmış böyük qələbənin əsasını qoydu.

Beləliklə, həm aprel döyüşləri, həm də 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinin parlaq səhifələridir və ölkənin suverenliyinin bərpasında mühüm rol oynadı.

Lakin 2016-cı ilin aprel döyüşləri zamanı cəbhəyanı bölgələrdə yerləşən kənd və qəsəbələrin atəşə tutulması, yaşayış evlərinin dağıdılması və mülki şəxslərin hədəfə alınması bu prinsiplərin kobud şəkildə pozulduğunu göstərir. Həmin vaxt Ağdam, Tərtər və digər istiqamətlərdə yerləşən yaşayış məntəqələri ağır artilleriya atəşinə məruz qaldı, nəticədə mülki əhali arasında itkilər qeydə alındı. Bu cür hücumlar beynəlxalq hüquqa görə yolverilməz hesab olunur.

Bundan əlavə, mülki infrastrukturun - evlərin, məktəblərin, sosial obyektlərin zədələnməsi münaqişə zonasından kənarda yaşayan insanların da həyatına birbaşa təsir göstərdi. Bu hallar insanların təhlükəsiz yaşamaq hüququnun pozulması ilə yanaşı, onların fundamental insan hüquqlarının da tapdanması deməkdir.

Beynəlxalq humanitar hüquq, o cümlədən Cenevrə konvensiyaları və onların əlavə protokolları müharibə və hərbi münaqişələr zamanı dinc əhalinin hədəfə alınmasını açıq şəkildə qadağan edir və mülki əhaliyə qarşı yönəlmiş hücumları müharibə cinayəti kimi qiymətləndirir. Bu baxımdan, aprel döyüşləri zamanı baş vermiş hadisələrin beynəlxalq hüquqi müstəvidə araşdırılması, faktların sənədləşdirilməsi və məsul şəxslərin müəyyən edilərək cavabdehliyə cəlb olunması mühüm əhəmiyyət kəsb edir.

Nəticə etibarilə, mülki əhaliyə qarşı hücumlar təkcə hərbi əməliyyatların bir hissəsi deyil, həm də insanlıq əleyhinə yönəlmiş ciddi hüquq pozuntularıdır. Bu cür halların unudulmaması, onların beynəlxalq ictimaiyyətə düzgün şəkildə çatdırılması və hüquqi qiymət alması ədalətin bərpası üçün vacib şərtlərdən biridir. Odur ki, aprel döyüşlərində Ağdam, Tərtər və digər cəbhəyanı bölgələrdə yerləşən yaşayış məntəqələrinin ağır artilleriya atəşinə tutulması nəticəsində dinc sakinlər arasında ölən və yaralananların olması beynəlxalq humanitar hüquqa əsasən müharibə cinayəti kimi qiymətləndirilir.



Aprel döyüşlərində dinc əhalinin hədəfə alınması 44 günlük müharibədə də davam etdirildi.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının tarixində dönüş nöqtəsi kimi yadda qalaraq ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində mühüm və qətiyyətli addım sayılır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu yüksək peşəkarlıq, müasir hərbi taktika və güclü vətənpərvərlik ruhu nümayiş etdirərək işğal altında olan torpaqları azad edərək, beynəlxalq hüququn tələblərini faktiki olaraq təmin etdi.

Bu müharibə yalnız hərbi qələbə ilə yekunlaşmadı, eyni zamanda uzun illər ərzində Ermənistan tərəfindən törədilmiş çoxsaylı cinayətlərin də dünya ictimaiyyətinə çatdırılması üçün mühüm zəmin yaratdı. İşğal dövründə Azərbaycan ərazilərində mədəni irsin məhv edilməsi, yaşayış məntəqələrinin viran qoyulması, dini abidələrin təhqir olunması və talan edilməsi Ermənistanın beynəlxalq humanitar hüquqa açıq şəkildə zidd fəaliyyətinin göstəricisidir.

Bununla yanaşı, müharibə dövründə və ondan əvvəl mülki əhaliyə qarşı həyata keçirilmiş hücumlar, o cümlədən Gəncə, Bərdə və digər şəhərlərin raket atəşinə tutulması insanlıq əleyhinə cinayətlər kimi qiymətləndirilməlidir. Bu hücumlar nəticəsində çoxsaylı günahsız insanlar həyatını itirib, yüzlərlə insan yaralanıb və infrastruktur ciddi zərər görüb. Belə əməllər beynəlxalq hüquq normalarına zidd olmaqla yanaşı, müharibə cinayəti kimi də hüquqi qiymətini almalıdır.

44 günlük müharibədən sonra əsas vəzifələrdən biri də bu həqiqətlərin beynəlxalq ictimaiyyətə obyektiv və dolğun şəkildə çatdırılmasıdır. Bu istiqamətdə dövlət qurumları, qeyri-hökumət təşkilatları və media mühüm rol oynayır. Faktların sənədləşdirilməsi, beynəlxalq təşkilatlara təqdim edilməsi və informasiya müharibəsində fəal iştirak Azərbaycanın haqq səsinin daha geniş auditoriyaya çatdırılmasına imkan verir.

Odur ki, Vətən müharibəsində qazanılmış qələbə yalnız hərbi uğur deyil, həm də ədalətin bərpası və beynəlxalq hüququn təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu qələbə Azərbaycan xalqının birliyini, dövlətin gücünü və liderliyin qətiyyətini nümayiş etdirərək gələcək nəsillər üçün örnək sayılır. Eyni zamanda, Ermənistanın törətdiyi cinayətlərin unudulmaması və hüquqi müstəvidə qiymətləndirilməsi beynəlxalq ədalətin bərpası üçün vacib şərt olaraq qalır.

Ermənistan tərəfindən törədilmiş cinayətlərin unudulmaması və hüquqi müstəvidə qiymətləndirilməsi istiqamətində Azərbaycan dövləti tərəfindən sistemli və çoxşaxəli tədbirlər həyata keçirilib.

İlk növbədə, bu cinayətlərin sənədləşdirilməsi istiqamətində mühüm işlər görülüb. Müharibə dövründə və işğal illərində baş vermiş hadisələr, dağıdılmış yaşayış məntəqələri, mülki əhaliyə qarşı törədilmiş zorakılıqlar, həmçinin maddi və mədəni irsə dəyən ziyan müvafiq dövlət qurumları tərəfindən toplanmış, foto və video materiallar, şahid ifadələri ilə sübut bazası formalaşdırılıbdır. Bu materiallar gələcək hüquqi proseslər üçün əsas rol oynayır.

Bununla yanaşı, Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində də fəal iş aparıb. BMT, ATƏT, Avropa Şurası və digər qurumlar qarşısında məsələ qaldırılıb, Ermənistanın hərbi cinayətləri və insanlıq əleyhinə əməlləri ilə bağlı hesabatlar təqdim edilib. Bu istiqamətdə diplomatik fəaliyyət gücləndirilib, həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün müxtəlif platformalardan istifadə olunub.

Hüquqi müstəvidə isə Baş Prokurorluq və digər aidiyyəti orqanlar tərəfindən cinayət işləri başlanıb, konkret faktlar üzrə araşdırmalar aparılıb. Müharibə cinayətləri, mülki əhaliyə qarşı hücumlar, infrastrukturun qəsdən dağıdılması kimi əməllərlə bağlı hüquqi qiymət verilməsi istiqamətində də işlər davam etdirilir. Eyni zamanda, beynəlxalq məhkəmələrə müraciətlər hazırlanıb və bəzi hallarda artıq təqdim edilib.

Bundan əlavə, informasiya müharibəsi istiqamətində də ciddi addımlar atılıb. Xarici mediada məqalələr, sənədli filmlər, konfranslar və təqdimatlar vasitəsilə Ermənistanın törətdiyi cinayətlər geniş auditoriyaya çatdırılıb. Bu, dünyada ictimai rəyin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Nəticə olaraq, görülən bu tədbirlər həm tarixi ədalətin bərpasına, həm də beynəlxalq hüquq çərçivəsində məsuliyyətin təmin olunmasına xidmət edir. Bu proses davamlı xarakter daşıyır və gələcəkdə də yeni hüquqi və diplomatik addımların atılması gözlənilir.

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

13_27 IYUI-QARA.qxd 4/9/2026 10:02 PM Page 13





## Dövlət Xidmətinin sabiq əməkdaşı faciəvi şəkildə öldü

***Paytaxtın Xətai rayonu ərazisində 31 yaşlı Müzəffər Aydınlı binanın 15-ci mərtəbəsindən yıxılaraq ölüb.***

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin İctimaiyyətlə İş və Beynəlxalq Əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov "Unikal"a açıqlamasında bildirib ki, Aydınlı Müzəffər 2 il əvvəl - 2024-cü ilin aprel ayından öz arzusu ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən ehtiyata buraxılıb.

"Dövlət Xidməti adından ailəsinə və yaxınlarına başsağlığı veririk", - deyə şöbə rəisi bildirib.

*Anar Kəlbiyev*

## Qadın MAXE-lər üçün hərbi xidmət müddəti 6 ayadək azaldıldı

***Müddətdən artıq həqiqi hərbi xidmətə qəbul ediləndə qadınlarla bağlanan ilkin bağlaşma müddəti 3 ildən 6 ayadək azaldılacaq.***

"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlara edilən dəyişiklikdə əksini tapıb.

İndiyə qədər "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.2-ci maddəsinə əsasən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları üçün ilkin bağlaşma müddəti müddətli həqiqi hərbi xidmətdən, ehtiyatdan daxil olanlar və qadınlar üçün 3 il müəyyən edilib. Həmin müddəa "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 12-ci maddəsinin "b" bəndində də nəzərdə tutulub.

Qanuna əsasən isə qadınlarla bağlanan ilkin bağlaşma müddəti 3 ildən 6 ayadək azaldılıb.

## Tovuzda ailə üç uşağından imtina etdi

***Tovuzda ailə övladlarına baxmağa gücü çatmadığı üçün onları uşaq evinə yerləşdirilməsini istəyir.***

"Unikal"ın məlumatına görə, rayon sakini icra hakimiyyətinə müraciət edərək 3 azyaşlı övladlarını baxmağa imkanı olmadığını bildirib. Uşaqlar icra hakimiyyətinin nümayəndələri tərəfindən müayinə olunmaq üçün Tovuz Rayon Mərkəzi Xəstəxanasına aparılıb.

Rayon icra hakimiyyətindən qeyd edilib, hazırda azyaşlılar xəstəxanada həkimlərin nəzarətindədir. Növbəti mərhələdə uşaqların uşaq evinə yerləşdirilməsini nəzərdə tutulur. İlkin məlumata görə, uşaqların anasının psixoloji problemləri var, bu səbəbdən ana uşaqlara baxa bilmir. Araşdırma zamanı məlum olub ki, uşaqların atası Tovuz şəhər sakini 1985-ci il təvəllüdlü Səbuhi Əsgərov içki aludəçisidir. Uşaqların anası 1987-ci il təvəllüdlü Tərane Əsgərovanın psixoloji problemləri var. Bu səbəbdən də 3 azyaşlı 2018-ci il təvəllüdlü İ.Əsgərov, 2019-cu il təvəllüdlü Y.Əsgərov və 2024-cü il təvəllüdlü İ.Əsgərovdur.

Məlumata görə, azyaşlıların anası uşaqları baxımsız vəziyyətdə saxlayırmış. Bununla bağlı qonşular da bir neçə dəfə aidiyyatı qurumlara müraciət edib. Hazırda uşaqların və anasının vəziyyəti normaldır.

*Tural Əhmədov*

# Cəhridən Lələtəpəyə, Lələtəpədən əbədiyyətə - Qəhrəmanlıq yolu

***Babək rayonunun Cəhri qəsəbəsindən çıxan igid zabit - şəhid mayor "Rasim Məmmədov"in həyat yolu Vətənə sədaqətin, cəsarətin və əsl qəhrəmanlığın bariz nümunəsidir. Onun ömür yolu yalnız şəxsi taleyi deyil, həm də Azərbaycan əsgərinin şərəfli döyüş salnaməsidir.***

Rasim Məmmədov gənc yaşlarından Vətən sevgisi ilə böyüyüb. Ailəsində gördüyü vətənpərvərlik nümunəsi onun həyat yolunu müəyyənləşdirib. Atası uzun illər torpaqlarımızın müdafiəsində iştirak etmiş, ağır yaralanaraq ömürlük əlil qalmışdı. Bu hadisələr Rasimin yaddaşında silinməz iz buraxmış, onu atasının yolunu davam etdirməyə sövq etmişdi.

Şəhidin anası Bəsti xanımın sözləri bu yolun necə başlanmasını aydın ifadə edir:

"Rasim 9-cu sinifdə oxuyanda məktəbdə eşitmişdi ki, Sədərəkdə döyüş gedir. Gəldi ki, maşın olsa gedib atama kömək edərəm. Atası vuruldu, amma o qorxmadı. Dedi ki, mən atamın yolunu gedəcəyəm. Atası da ona xeyir-dua verdi - gedin torpağımızı qoruyun."

Bu xeyir-dua ilə Rasim hərb yolu-



nu seçərək "Bakı Ali Birləşmiş Komandirlər Məktəbi"nə daxil olur. Təhsilini uğurla başa vuraraq peşəkar zabit kimi formalaşır, xidmətində daim fərqlənir və tank taborunun komandiri - mayor rütbəsinə qədər yüksəlir.

Onun həyat yoldaşı Samirə xanım Rasimin xarakterini belə xatırlayır:

"Rasim evdə həmişə vətənpərvərlik mahnıları dinləyirdi. Hərbi hissəyə gedəndə əsgərlərinə də dinlədirdi. Telefonunda "Çırpınırdı Qara dəniz" mahnısı vardı, çox sevərdi..."

2016-cı ilin aprelində baş verən və tarixə Aprel döyüşləri kimi düşən döyüşlərdə Rasim Məmmədov ön cəbhədə idi. Lələtəpə uğrunda gedən şiddətli döyüşlərdə böyük şücaət göstərərək qəhrəmancasına şəhid oldu.

Samirə xanım həmin günləri belə xatırlayır:

"Aprelin 1-dən 2-nə keçən gecə atışmalar başladı. Sonuncu danışığımızda dedi ki, hər şey yaxşıdır, düşmənin anasını ağlatdıq. Aprelin 4-ü zəng etdim, telefona cavab vermədi... Bununla da bizim həyat hekayəmiz bitdi. Amma mən qürur duyuram ki, Rasimin həyat yoldaşıyam."

Rasim Məmmədov göstərdiyi igidliyə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Vətən uğrunda medalı" və II dərəcəli "Qüsursuz xidmətə görə medalı" ilə təltif olunub.

Ailəli idi, iki övladı yadigar qaldı. Onun ömür yolu - Cəhridən Lələtəpəyə uzanan və əbədiyyətə qovuşan yol - Vətən uğrunda canından keçən qəhrəmanların ölməzliyinin rəmzidir.

Bu igid zabitin həyatı bir daha sübut edir ki, Vətən sevgisi ən ali dəyərdir. Rasim Məmmədovun adı və keçdiyi şərəfli yol xalqımızın yaddaşında daim yaşayacaq.

# Yaylaqlara köçlə bağlı qeydiyyata başlanılır - Fermerlərin nəzərinə!

***Qoyunçuluq və arıçılıq təsərrüfatlarını işğaldan azad edilmiş ərazilərdə yerləşən yaylaqlara aparmaq istəyən fermerlərin qeydiyyatına başlanılır.***

"Unikal" xəbər verir ki, qeydiyyat prosesi Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə (eagro.az) həyata keçirilir.

Təsərrüfatlarını azad olunuş ərazilərdəki yaylaqlara aparmaq istəyən, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarından, yaxud İmişli, Beyləqan, Ağdaş, Yevlax, Mingəçevir, Ucar, Zərdab və Samux rayonlarından birində qeydiyyatda olan fermerlər eagro.az portalına öz təsərrüfatları haqqında məlumatları daxil edərək 13 aprel, saat 10:00-dan etibarən qeydiyyatdan keçə bilərlər.

Fermerlərə yaylaq sahəsi portal vasitəsilə seçdiyi ərazi üzrə ayrılacaq.

2026-cı il yaylaq mövsümü dövründə arıçılıq təsərrüfatlarının Qubadlı, Zəngilan, Cəbrayıl, Xocavənd, Füzuli, Laçın və Kəlbəcər rayonları ərazisinə, qoyunçuluq təsərrüfatlarının isə Laçın və Kəlbəcər yaylaqlarına köçürülməsinə icazə verilir.

Fermerlərin köç portalına daxil etdikləri məlumatların tələblərə uyğunluğu yoxlandıqdan sonra təsdiq ediləcək.

Fermerlərə portalda qeydiyyat zamanı göstərdikləri mobil nömrəyə köç tarixinə dair SMS bildirişi göndəriləcək.

Köç prosesində iştirak etmək istəyən fermerlərin öz təsərrüfatlarındakı iribuynuzlu və xırdabuynuzlu



heyvanları identifikasiya etməsi və identifikasiya ilə bağlı məlumatları EKTİS-ə daxil etməsi tövsiyə olunur.

Fermerlər əlavə məlumat üçün Dövlət Aqrar İnkişaf Mərkəzlərinə müraciət edə bilərlər.

# Tovuzda bazarda yoxlama keçirildi - Nöqsanlar aşkarlandı

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları tərəfindən Tovuz şəhəri, M. Musayev küçəsində fəaliyyət göstərən "Nəsimi" firmasına məxsus ərzaq bazarında planlı yoxlama keçirilib.***

"Unikal" xəbər verir ki, yoxlama zamanı müəssisədə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin pozulması faktları aşkar edilib. Belə ki, bazarda ət və süd məhsullarının satışı sahəsində döşəmə və divar səthlərinin hamar və təmirli olmadığı, müntəzəm təmizlik və dezin-



feksiya işlərinin aparılmadığı müəyyən olunub. Eyni zamanda, ət və süd məhsullarının saxlanma temperaturuna riayət edilmədən satışa çıxarıldığı, etiket məlumatları olmayan qida məhsullarının realizə edildiyi aşkarlanıb.

Bundan əlavə, qida məhsullarının satışı zamanı çarpaz çirklənmə hallarına yol verildiyi, işçi masaların səthinin asan təmizlənən materialla üzlənmədiyi, istehsal prosesi zamanı yaranan tullantıların ağzı kip bağlanan qablara toplanıb kənarlaşdırılmadığı və digər nöqsanlar müəyyən edilib.

Nöqsanlarla bağlı bazarın səlahiyyətli nümayəndəsi barəsində qanunvericiliyə uyğun olaraq inzibati protokol tərtib edilib və icrası məcburi göstərişlər verilib.

# Nəqliyyat sektoruna investisiyalar artıb

***Azərbaycanda nəqliyyat və anbar təsərrüfatı sektoru üzrə 2026-cı ilin ilk aylarında da statistik göstəricilərdə artım qeydə alınıb.***

RİNN-dən "Unikal"a verilən məlumata görə, fevral ayının sonuna olan məlumata əsasən, nəqliyyat və anbar sektorunun ÜDM-də payı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə artaraq 7,5%-ə çatıb. Qeyri-neft/qaz ÜDM-də də artım müşahidə olunub və sektorun payı 10,3% təşkil edib.

Sahədə yaradılan əlavə dəyər də yüksəlməkdə davam edir.



Yanvar-fevral aylarında bu göstərici 1 milyard 381 milyon 900 min manata çatıb. Bu, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 2,4% və ya 105.7 milyon manat artım deməkdir. Sektor üzrə ümumi gəlir isə 2 milyard 267 milyon 200 min manat olub.

İnvestisiya qoyuluşu nəqliyyat sektorunun inkişafında əsas amillərdən biri olaraq qalır. Yanvar-fevral aylarında sahəyə yönəldilən investisiyaların həcmi 606.6 milyon manat olub. Yeni real ifadədə 12,1% artım olub.

Ümumilikdə nəqliyyat və anbar təsərrüfatı sektorunda qeydə alınan müsbət dinamika ölkənin logistika imkanlarının gücləndiyini və regional nəqliyyat qovşağı kimi mövqeyinin möhkəmləndiyini göstərir.

# Milli Kitabxanada "Azərbaycan mətbuatının işıqlı səhifəsi: "Molla Nəsrəddin" jurnalı - 120" adlı virtual sərgi keçirilib

***7 aprel 2026-cı il tarixində Azərbaycanın ilk satirik jurnalı "Molla Nəsrəddin"in birinci nömrəsinin işıq üzü görməsinin 120 illik yubileyi münasibətilə "Azərbaycan mətbuatının işıqlı səhifəsi: "Molla Nəsrəddin" jurnalı - 120" adlı virtual və ""Molla Nəsrəddin" jurnalı - 120" adlı geniş ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.***

Sərgilərdə rəsmi sənədlər, jurnalın orijinal nömrələri, kitab şəklində nəşr olunmuş çoxcildliyi, milli təfəkkürün inkişafında və insanların maariflənməsində jurnalın böyük rolu, Cəlil Məmmədquluzadə və bu jurnal ətrafında formalaşan mollanəsrəddinçilərin - Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Əliqulu Qəmküsar kimi dövrün tanınmış ziyalılarının göstərdikləri xidmətlər və s. mövzularda Azərbaycan və xarici dillərdə ədəbiyyatlar, elmi tədqiqat işləri, həmçinin Milli Kitabxananın mollanəsrəddinçi ədəbi məktəbin nümayəndələri haqqında nəşr etdiyi biblioqrafiyalar və dövri mətbuat materialları nümayiş olunur.

Virtual sərgi ilə https://anl.az/el/vsb/Molla_Nesreddin_120/index.htm linkindən istifadə edərək tanış ola bilərsiniz.

Təkcə satirik nəşr deyil, eyni zamanda milli oyanış, maarifçilik və ictimai şüurun inkişafında vasitə kimi Azərbaycan mətbuatının tarixi baxımından əhəmiyyətli rol oynayan "Molla Nəsrəddin" jurnalı XX əsrin əvvəllərində ölkənin ictimai-siyasi və mədəni həyatında dönüş nöqtəsi yaradıb. Jurnal 1906-cı il aprelin 7-də Tiflisdə "Qeyrət" mətbəəsində nəşrə başlayıb və müəyyən fasilələrlə iyirmi beş il ərzində fəaliyyət göstərib.

Görkəmli ədib, publisist və satirik ədəbiyyatın banisi Cəlil Məmmədquluzadənin redaktoluğu ilə əvvəlcə Tiflisdə (370 nömrə), sonra qısa müddət Təbrizdə (8 nömrə), nəhayət, Bakıda (390 nömrə) nəşr olub. Jurnalın yaradıcı heyəti M.Ə.Sabir, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi və digər ziyalılar daxil olub. Rəssamlar Rötter, Şmerlinq, Əzim Əzimzadə və Təbrizdə çıxan nömrələrin illüstratoru Əli Behzad realist üslubda çəkdikləri karikaturalarla jurnalın sosial-satirik mesajını vizual olaraq ifadə edib.

"Molla Nəsrəddin" jurnalı həftədə bir dəfə, hər sayı 8 səhifə həcmində, rəngli və şəkilli nəşr olunaraq dövrün sosial problemlərini, cəhaləti, haqsızlığı və ictimai bəlaları satirik üslubda işıqlandırıb. Adını xalq ədəbiyyatının müdrik və zarafatcıl obrazı Molla Nəsrəddindən alan jurnal, gülüş vasitəsilə cəmiyyəti düşündürməyi, ədalətsizliyə qarşı maarifçilik missiyasını həyata keçirməyi məqsəd qoyub.



Jurnal yalnız Azərbaycanda deyil, həm də Qafqaz, Rusiya, Orta Asiya, Yaxın Şərq və Şimali Afrikanın bir çox şəhərlərində yayılıb, müxtəlif millətlərdən milyonlarla oxucu qazanıb. Onun təsiri nəticəsində Azərbaycanda "Bəhlul", "Kirpi", "Zənbur", "Babayi-Əmir", "Şeypur" və digər satirik nəşrlər meydana çıxıb.

# I sinfə qəbulda yeni qayda tətbiq olunur

***Azərbaycanda dövlət xidmətlərinin rəqəmsallaşdırılması çərçivəsində ümumi təhsil məktəblərinin, lisey və gimnaziyaların I sinfinə elektron sənəd qəbulu prosesi və fiziki şəxslərin gəlir vergisi bəyanı ilə bağlı yeni mərhələlər müəyyənləşdirilib.***

I sinfə qəbul xidmətinin Elektron Hökumət İnformasiya Sistemi (EHİS) ilə inteqrasiyasının 2026-cı il mayın 1-nə qədər təmin edilməsi nəzərdə tutulur.

Layihə çərçivəsində xidmətin mövcud iş axını mayın 20-nə qədər təqdim ediləcək.



Bundan əlavə, təkmilləşdirmələr nəzərə alınmaqla yeni iş axınının hazırlanaraq iyunun 13-nə qədər razılaşdırılması planlaşdırılır. Xidmətin iyunun 10-na qədər "mygov" platforması üzərindən istifadəyə verilməsi (istismar mühitində) nəzərdə tutulur.

Layihənin icrasında Elm və Təhsil Nazirliyi ilə yanaşı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi iştirak edir.

Eyni zamanda fiziki şəxslərin gəlir vergisi bəyanı xidmətinin də rəqəmsallaşdırılması istiqamətində addımlar atılır. Belə ki, bu xidmətin də EHİS-ə inteqrasiyasının 2026-cı il oktyabrın 1-nə qədər təmin edilməsi planlaşdırılır.

Bu istiqamətdə işləri İqtisadiyyat Nazirliyi həyata keçirəcək.

("Report")




# Samuxda məşğul və işsiz əhali

***2026-cı il yanvar ayının 1-i tarixinə rayonda məşğul əhalinin sayı 34001 nəfər təşkil edir. Bu da ötən illə müqayisədə 717 nəfər və ya 2,2 faiz çox olmuşdur. Məşğul əhalinin 32,0 faizi şəhər yerlərində, 68,0 faizi isə kənd yerlərində yaşayır.***

Məşğul əhalinin 42,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq 4,4 faizi sənaye, 10,9 faizi tikinti, 11,5 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi təhsil, 2,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 4,7 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat 4,1 faizi nəqliyyat və anbar təsərrüfatında, 11,8 faizi isə qalan fəaliyyət sahələrində mövcud olmuşdur.

Rayon üzrə işsiz əhalinin sayı 1027 nəfər olmuşdur. İşsiz əhalinin 59 faizi şəhər yerləri üzrə, 41 faizi isə kənd yerləri üzrə mövcud olmuşdur.

***Samux Rayon Statistika İdarəsi***

# 2026-cı ilin ilk 2 ayında Laçın rayonu üzrə muzdla işləyənlərin statistikası

***2026-cı ilin yanvar-fevral aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta sayı 6,5 min nəfər olmuşdur. Onlardan 5,6 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 0,9 min nəfəri qeyri-dövlət sektorunda çalışmışlar.***

Muzdla işləyənlərin 6,4 faizi tikinti, 3,5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 3,4 faizi dövlət idarəetməsi və müdafiə; icbari sosial təminat, 50,4 faizi təhsil, 11,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,7 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 3,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 3,4 faizi su təchizatı; tullantıların təmizlənməsi və emalı, 10,0 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2026-cı ilin yanvar-fevral aylarında rayon iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 11,9 faiz artaraq 792,6 manat təşkil etmişdir. Orta aylıq nominal əməkhaqqı iqtisadiyyatın dövlət sektorunda 798,2 manat, qeyri-dövlət sektorunda isə 758,6 manat təşkil etmişdir.

***Laçın Rayon Statistika İdarəsi***

# Ağdaşda heyvandarlıq məhsullarının istehsalı belə olub

***2025-ci ildə kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında faktiki qiymətlərlə 258859,2 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 58,6 faizi heyvandarlığın payına düşmüşdür.***

2025-ci ildə 12070,9 ton diri çəkidə ət, 59300,8 ton süd, 25326 min ədəd yumurta istehsal olunmuşdur. 2024-cü ilə nisbətən yumurta istehsalı 0,6 faiz, ət istehsalı 0,1 faiz artmış, süd istehsalı 0,9 faiz azalmışdır.

2026-cı il yanvar ayının 1-i vəziyyətinə 66604 baş iri buynuzlu mal-qara, o cümlədən 29053 baş inək və camış, 70832 baş qoyun və keçi mövcud olmuşdur.

Ailə kəndli və ev təsərrüfatlarında 524 baş at, 3743 arı ailəsi, 67 baş eşşək, 289988 baş quş mövcud olmuşdur.

***Ağdaş Rayon Statistika İdarəsi***

13_27 IYUl-QARA.qxd 4/9/2026 10:02 PM Page 15



## "İranın 10 maddəlik təklifi ChatGPT ilə yazılmışdı" - Vens



***"İran təklifi ChatGPT tərəfindən yazılıb və biz onu zibil qutusuna atdıq. Amma onların ikinci 10 bəndlik təklifi yaxşı idi".***

"Unikal" xəbər verir ki, bunu ABŞ-nin vitse-prezidenti J.D.Vens deyib. "İranın ChatGPT tərəfindən yazılmış ilkin on maddəlik təklifi var idi və biz onu dərhal zibil qutusuna atdıq. Daha məntiqli olan ikinci 10 bəndlik təklif var idi. Bu, bizimlə pakistanlılar arasında bəzi söhbətlərə əsaslanırdı. Prezidentin istinad etdiyi təklif bu idi və dünənə qədər doğru idi. Açığı, müxtəlif sosial media kanallarında yayılan birinci təklifdən daha radikal olan üçüncü 10 bəndlik təklifi gördüm".

***Ağarza Elçinoğlu***

## ABŞ qoşunları İranda qalacaq - Səbəb

***"ABŞ qoşunları ölkələr arasında razılaşma tam şəkildə yerinə yetirilənə qədər İran sərhədlərində qalacaq".***

"Unikal" xəbər verir ki, bunu ABŞ Prezidenti Donald Tramp "Truth Social"da yazıb.

"ABŞ-nin bütün gəmiləri, təyyarələri və şəxsi heyəti, əlavə sursat, silahlar və onsuz da zəifləmiş düşmənin ölümcül təqibi və məhv edilməsi üçün uyğun və zəruri olan hər şeylə birlikdə, əldə edilən razılaşma tam yerinə yetirilənə qədər yerində qalacaq", - Amerika lideri yazıb. Xatırladaq ki, 8 aprel gecəsi ABŞ və İran iki həftəlik atəşkəs barədə razılığa gəliblər. Onlar arasında müharibə 28 fevral tarixində başlamışdı.

***Gülayə Mecid***

## Tehran uranı zənginləşdirməkdən imtina etməyəcəyini açıqladı

***"İranın əleyhdarları Tehranın uranı zənginləşdirməsini heç vaxt dayandıra bilməyəcəklər".***

"Unikal" xəbər verir ki, bunu İranın vitse-prezidenti və Atom Enerjisi Təşkilatının rəhbəri Məhəmməd Eslami deyib.

"İranın zənginləşdirmə proqramını məhdudlaşdırmaq üçün müxaliflərin iddiaları və tələbləri sadəcə məzara gedəcək xəyallardır", - deyə o qeyd edib.

Eslaminin sözlərinə görə, İsrail və ABŞ-nin İrana qarşı təcavüzü heç bir nəticə verməyib və indi onlar danışıqlar zamanı Tehrandan güzəştlər əldə etməyə çalışmaq istəyirlər.

***Ağarza Elçinoğlu***

## "Netanyahu atəşkəsi pozmağa çalışır"

***İsrailin Baş naziri Benyamin Netanyahu Livandakı "Hizbullah" hədəflərinə hücumlar edərək İranla atəşkəsi pozmağa çalışır.***

"Unikal" xəbər verir ki, bu barədə "Politico" avropalı bir məmura istinadən yazıb.

Xatırladaq ki, 8 aprel gecəsi ABŞ və İran iki həftəlik atəşkəs barədə razılığa gəliblər. Onlar arasında müharibə 28 fevral tarixində başlamışdı. ABŞ lideri Donald Tramp bundan əvvəl ABŞ qoşunlarının razılıq əldə olunana qədər İrana yaxın qalacağını bildirmişdi.

***Gülayə Mecid***

## "Azı 4-5 dəfə həbsdə olmuşam" - Paşinyan

***"İşsiz qalmışam, həbsdə olmuşam. Məni heç nə ilə təəccübləndirə bilməzsiniz".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan deyib. Paşinyan jurnalistin "Baş nazir seçilməsəniz, harada olacaqsınız? Həbsxanada?" sualına belə cavab verib: "Mən ən azı 4-5 cəzaçəkmə müəssisəsində olmuşam. Həyatda elə vəziyyətlər azdır ki, o başıma gəlməyib. Bir şey haqqında danışanda nədən danışdığımı bilirəm, amma bir çox insan eyni şey haqqında danışanda nədən danışdıqlarını bilmir.

Onlar bu şeyləri filmlərdə görüblər, kitablarda görməyiblər, çünki kitab da oxuyub görməyiblər".

***Ağarza Elçinoğlu***

# "Rusiyanın arxasından heç bir iş görmürük" - Paşinyan

***"Ermənistan hakimiyyəti Rusiyanın arxasında və ya ona zidd olaraq heç bir iş görmür".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

Hökumət iclasından sonra keçirilən brifinqdə Paşinyan Ermənistan-Qazaxıstan dəmir yolu şəbəkəsinin yeni güzəştli idarəetməyə verilməsi məsələsinin müzakirə olunub-olunmayacağı ilə bağlı suala da



cavab verib:

"Qazaxıstan ötən ilin avqust ayından bəri "Tramp marşrutu"na maraq göstərdiyini açıq şəkildə bildirib. Lakin Qazaxıstan maraq göstərən yeganə ölkə deyil. Çoxlu sayda ölkə var. Və biz, o cümlədən Qazaxıstana təklif irəli sürməliyik. Bu ölkələr ixrac və idxal zəncirlərində, eləcə də təqdim etdikləri nəqliyyat xidmətlərində Ermənistandan keçən tranzit marşrutlarından istifadə etməyə hazır olmalıdırlar".

***Gülayə Mecid***

# İran ötən gecə Vaşinqtona hansı mesajı göndərib?

***ABŞ Yaxın Şərqdə sülh və müharibə arasında seçim etməlidir.***

"Unikal" xəbər verir ki, bunu İran xarici işlər nazirinin müavini Səid Xətibzadə deyib.

Diplomat İsrailin Livana hücumları barədə danışarkən deyib: "Hər ikisini eyni anda əldə etmək olmaz. Bunlar bir-birini istisna edir, bu, olduqca aydındır.

Atəşkəs tələb edə, onun şərtlərini, əhatə etdiyi əraziləri qəbul edə, eyni zamanda Livanda qırğına başlaya bilməzsiniz".

Xatibzadə qeyd edib və əlavə edib ki, dünən gecə Vaşinqtona müvafiq qətiyyətli mesaj göndərilib.

***Ağarza Elçinoğlu***



# "NATO bizə kömək etmədi" - Trampdan Rutteyə

***NATO-nun baş katibi Mark Rutte Ağ Evdə ABŞ prezidenti Donald Trampla görüşüb.***

"Unikal" xarici mətbuata istinadən xəbər verir ki, görüş qapalı qapılar arxasında keçirilib.

Rutte daha sonra söhbəti "çox açıq və dürüst" adlandırıb, lakin Trampın NATO-dan çıxmaqdan bəhs edib-etmədiyi sualına birbaşa cavab verməyib. ABŞ prezidenti görüşlə bağlı şərh verərək "NATO-nun ehtiyac duyduğumuz zaman bizə kömək etmədiyini" təəssüflə qeyd edib.



Bildirək ki, bu, Trampın Avropa müttəfiqlərini İrana qarşı ABŞ-İsrail müharibəsinə qoşulmaqdan imtina etdiklərinə görə tənqid etməsindən sonra onların ilk görüşü idi.

***Gülayə Mecid***

# Şimali Kipr Azərbaycandan kömək istədi

***Ötən il Iqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasına müşahidəçi üzvlük üçün edilən müraciətin tezliklə müsbət nəticələnməsi üçün sizlərdən dəstək istəyirik.***

"Unikal" xəbər verir ki, bu barədə Şimali Kipr Türk Cümhuriyyətininin Məclis sədri Ziya Öztürk Milli Məclisdə Azərbaycan-Türkiyə-Şimali Kipr Türk Respublikası parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun 13-cü iclasında deyib. Öztürk çıxışında Azərbaycanın mövqeyinə xüsusi diqqət çəkib. Onun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə KKTC-nin müstəqil dövlət kimi tanınması prosesində Kipr türklərinin yanında olduğunu bəyan edib və qurumun Türk Dövlətləri Təşkilatına tamhüquqlu üzv olması ideyasını dəstəkləyib.

"Bu iki güclü liderin Kipr türklərinin yanında dayanmasını bir daha hörmətlə salamlayır, minnətdarlığımı bildirirəm. Bu dəstək bizə güc verir və mübarizə əzmimizi daha da möhkəmləndirir", - deyə o qeyd edib.

# Türkiyədə İsrail konsulluğuna hücuma görə 198 nəfər saxlanıldı

***İstanbuldakı İsrail konsulluğuna edilən hücumdan sonra İŞİD-ə qarşı əməliyyat keçirilib və 198 nəfər saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin Ədliyyə Nazirliyi məlumat yayıb.

"İstanbulun Levent rayonundakı polis məntəqəsinə üç terrorçunun silahlı hücumundan sonra 34 vilayətdə İŞİD terror təşkilatına qarşı eyni vaxtda əməliyyatlar həyata keçirilib. Əməliyyatlar zamanı 273 şübhəli şəxs barəsində tədbirlər görülüb, 198 şübhəli saxlanılıb", - məlumatda qeyd olunub.

Xatırladaq ki, aprelin 7-də İstanbuldakı İsrail konsulluğuna silahlı hücum təşkil edilib. Hücum edənlər zərərsizləşdirilib, iki polis əməkdaşı da yaralanıb. Türkiyə prezident administrasiyası terror təhdidləri ilə mübarizəni davam etdirdiyini bildirib.

***Gülayə Mecid***

13_27 IYUl-QARA.qxd 4/9/2026 10:02 PM Page 16



# AFFA-dan klublara cəza və cərimələr



***AFFA İntizam Komitəsinin iclası keçirilib.***

“Unikal” xəbər verir ki, iclasda Misli premyer Liqasının 26-cı turundakı və Azərbayca kubokunun yarımfinal mərhələsinin ilk oyunlarındakı qayda pozuntuları ilə bağlı qərarlar qəbul edilib.

**Misli Premyer Liqası**

“Zirə” - “Şamaxı” oyununa Təcili Tibbi Yardım avtomobili təyin edilmiş vaxtdan gec gəldiyinə görə paytaxt təmsilçisi 2000 manat cərimələnib.

Eyni matçın 53-cü dəqiqəsində “Şamaxı”nın 11 nömrəli futbolçusu Dioqo Balau ciddi qayda pozuntusuna görə birbaşa qırmızı vərəqə aldığı üçün 2 oyun oyuna buraxılayacaq. “Şamaxı” isə 1000 manat cərimə edilib.

“Araz-Naxçıvan” - “Sabah” oyununda Naxçıvan təmsilçisinin 4 futbolçusu sarı vərəqə aldığı üçün klub 700 manat cərimələnib.

Həmin görüş bitdikdən sonra “Araz-Naxçıvan”ın baş məşqçisi Andrey Demçenko hakimin qərarına etiraza görə ikinci sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyun oyunluq cəzalandırılıb. “Araz-Naxçıvan” isə 2500 manat cərimə edilib.

**Azərbaycan kuboku**

“Turan Tovuz” - “Zirə” görüşündə “Turan Tovuz” azarkeşləri tərəfindən hakimlərin ünvanına kütləvi şəkildə təhqiramiz ifadələr səsləndirildiyinə görə klub 5000 manat cərimələnib. Eyni görüş bitdikdən sonra “Turan Tovuz”un idarə heyətinin sədri Ehtiram Quliyev AFFA-nın, onun orqanlarının və ya üzv təşkilatlarının nüfuzunu və etibarlılığını qəsdən alçaldan, şübhə altına qoyan açıqlamalar verdiyinə görə Tovuz təmsilçisi 15000 manat cərimə edilib.

Bu oyunda “Zirə”dən 4 nəfər sarı vərəqə aldığı üçün paytaxt klubu 700 manat cərimələnib.

# “Araz-Naxçıvan” bəzi legionerlərlə yollarını ayıracaq

***“Araz-Naxçıvan” mövsümün sonunda bəzi legionerlərlə yollarını ayıracaq.***



“Unikal” xəbər verir ki, Naxçıvan təmsilçisinin işbirliyinə son verəcəyi oyunçulardan biri Vanderson Melodur.

31 yaşlı futbolçunun “Araz-Naxçıvan”la müqavilə müddəti 2026-cı il iyunun 30-na qədərdir. O, 2023-cü il iyul ayından Premyer Liqa klubunda oynayır. Vanderson “Koritiba”, “Eskilstuna”, “Vitebsk”, “Çernomorets”, “Panejevis” kimi klublarda çıxış edib. Əlavə edək ki, ”Araz-Naxçıvan”ın mövsümün sonunda Bar Kohenin də müqavilə müddətini artırmayacağı iddia olunur.

# Dioqo Balau 2 oyunluq diskvalifikasiya edildi

***AFFA İntizam Komitəsi ”Şamaxı”nın futbolçusu Dioqo Balaunu 2 oyunluq diskvalifikasiya edib.***

”Unikal” xəbər verir ki, buna yarımmüdafiəçinin Misli Premyer Liqasının XXVI turunda keçirilən ”Zirə” - ”Şamaxı” oyununda ciddi qayda pozuntusuna görə birbaşa qırmızı vərəqə alması səbəb olub.

Həmçinin buna görə bölgə təmsilçisi 1000 manat cərimə edilib.

Turun ”Araz-Naxçıvan” - ”Sabah” oyununda ev sahiblərinin 4 futbolçusu sarı vərəqə aldığı üçün komanda 700 manat cərimələnib.

Oyundan sonra naxçıvanlıların baş məşqçisi Andrey Demçenko hakimin qərarına etiraz etdiyi üçün qırmızı vərəqə alıb. Mütəxəssis 1 oyunluq cəza alıb, klub isə əlavə olaraq 2500 manat ziyana düşüb.



# “Sumqayıt”ın baş məşqçisi futbolçusu ilə əlbəyaxa dava edib

***“Sumqayıt”ın baş məşqçisi Saşa İliçlə oyunçular arasında ciddi problemlər yaranıb.***

“Unikal” Futbolinfo.az-a istinadən xəbər verir ki, serb mütəxəssis yarımmüdafiəçi Səbuhi Abdullazadədən narazıdır və mətbuat konfransında bunu açıq şəkildə dilə gətirib.

Amma kapitan onunla problem yaşayan yeganə futbolçu deyil. Digərləri də İliçlə müxtəlif insidentlər yaşayıb.



Ən böyük problem Danilo Beskorovaynıyla bağlıdır. Ukraynalı müdafiəçi ilə münasibətlər hətta dava-dalaş həddinə çatıb. “Sabah”la oyundan sonrakı məşqlərdən birində legioner oyunçu çalışdırıcı ilə əlbəyaxa olub. Qarşılıqlı ittihamlardan sonra tərəflər sakitləşdirilib. Bunun nəticəsidir ki, Beskorovaynıy son turun “Neftçi” ilə oyununda meydana buraxılmayıb. O, sonadək oyunu ehtyatda izləyib.

Yayda İliç komandada qalsa, ukraynalı ilə yollar ayrılacaq. Amma böyük ehtimal məhz serb məşqçinin yola salınacağıdır.



# Bəhlul Mustafazadə bu göstəricidə ÇL-in ən yaxşılarındandır

***Çempionlar Liqasının 1/4 final matçlarından sonra “Qarabağ”ın futbolçuları müxtəlif göstəricilərdə ən yaxşılar arasındadırlar.***

“Qafqazinfo” xəbər verir ki, “Qarabağ”ın müdafiəçisi Bəhlul Mustafazadə Çempionlar Liqası oyunlarında ən yüksək sürətə malik oyunçular siyahısına qoşulub.

O, saatda 36,5 km sürət ilə ilk beşliyi tamamlayır. İlk üçlüyə ”Pafos”un hücumçusu Landri Diamata (39,6), “Bayer”in hücumçusu Patrik Şik (39,6) və PSJ-nin cinah oyunçusu Bredli Barkola (36,7) daxil olub.

Eyni zamanda, “Qarabağ”ın qapıçısı Mateuş Koxalski seyvlərdə (45) dördüncü pillədəki yerini qoruyub. O, “Bodo-Qlimt”in qapıçısı Nikita Haykin (68), “Real”dan Tibo Kurtua (56) və “Qalatasaray”ın qapıçısı Uğurcan Çakırdan (48) geri qalır.

Xatırladaq ki, “Qarabağ” ümumilikdə 22-ci yeri tutub və pley-offdan sonra Çempionlar Liqasını tərk edib.

# “Paris-2024”: Yenilənmiş Olimpiya medalları Azərbaycan idmançılarına təqdim olunub

***Milli Olimpiya Komitəsində (MOK) Azərbaycan idmançıları Qaşım Maqomedov və Həsrət Cəfərov üçün medal təqdimetmə mərasimi təşkil olunub.***



Onların “Paris-2024” Yay Olimpiya Oyunları zamanı qazandıqları medallar aşınmaya məruz qaldığı üçün yenisi ilə əvəz edilib.

Taekvondoçu Qaşım Maqomedovun gümüş, yunan-Roma güləşçisi Həsrət Cəfərovun isə bürünc medalı yenilənib və mərasimdə hər iki idmançıya yeni mükafatlar rəsmi şəkildə təqdim olunub.

Qeyd edək ki, ”Paris-2024”də mükafat qazanan yeddi idmançımızdan beşinin medalında nəzərəçarpan dərəcədə dəyişiklik baş verib. Cüdo üzrə Olimpiya çempionu Hidayət Heydərov (73 kiloqram) və sərbəst güləş üzrə bürünc mükafatçı Maqomedxan Maqomedovdan (97 kiloqram) başqa, cüdo üzrə Olimpiya çempionu Zelim Kotsoyevin (100 kiloqram) qızıl, taekvondoçu Qaşım Maqomedovun (58 kiloqram), boksçu Alfonso Dominqesin (92 kiloqram) gümüş, yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kiloqram) və sərbəst güləşçi Giorgi Meşvildişvilinin (125 kiloqram) bürünc medalları keyfiyyətini itirib.

# Luis Enrike: "PSJ-ni "Enfild"də əzab-əziyyət gözləyir"

***PSJ-nin baş məşqçisi Luis Enrike Çempionlar Liqasının 1/4 final mərhələsinin ilk oyunları çərçivəsində ”Liverpul”a qalib gəldikləri matç (2:0) haqqında danışıb.***

QOL.az UEFA-nın saytına istinadən xəbər verir ki, mütəxəssis bu qələbənin onları arxayınlaşdırmamalı olduğunu deyib: ”Düşünürəm ki, bu nəticəyə layiq idik. Xüsusilə də ilk hissə çox çətin və gərgin oldu. Fasilədən sonra çoxlu qol şansları yaratdıq. Bu, təəssüf doğurur, çünki düşünürəm ki, ən azı bir qol daha vura bilərdik. Bu gün stadiondakı atmosfer inanılmaz idi. İndi dincəlmək və Liverpuldakı növbəti oyun haqqında düşünməyin vaxtıdır. Gəldiyim ilk günlərdən bəri azarkeşlərlə komanda arasında bu əlaqəni görürəm. ”Enfild”də oynamaq çox çətindir. Bizi orada əzab-əziyyət gözləyir”.

Qeyd edək ki, bu komandalar arasında cavab oyunu aprelin 14-də keçiriləcək.